AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

№ 20 (1420), 14 - 20 may 2019-cu il

*Qəzet 2001-ci ildən çıxır.*



## Azərbaycan ilə İran arasında gənclər və idman sahələrində əməkdaşlığın perspektivləri müzakirə olunub

Mayın 13-də İrana səfərə gələn Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov bu ölkənin idman və gənclər naziri Məsud Soltanifər ilə görüşüb. Görüşdə qarşılıqlı əlaqələrin genişləndirilməsi və idman sahəsində birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilib.

Azad Rəhimov diqqətə çatdırıb ki, hər iki ölkənin siyasi rəhbərliyi arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Bu fakt idman və gənclər sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün böyük zəmin yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə ən müasir idman kompleksləri tikilib istifadəyə verilib. Təsadüfi deyil ki, Azərbaycan 2015-ci ildə birinci Avropa, 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarına, həmçinin ardıcıl dörd il ərzində Formula 1 yarışına uğurla ev sahibliyi edib.

*(ardı 2-ci səhifədə)*

## XV Avropa Gənclər Olimpiya Festivalına 68 gün qalır





## II Avropa Oyunlarına 38 gün qalır

## Paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarının təntənəli açılış mərasimi keçirildi

Mayın 13-də Bakıda paracüdo üzrə beynəlxalq Qran-Pri turnirinin təntənəli açılış mərasimi olub.

Mərasimdə çıxış edən AMPK-nın prezidenti İlqar Rəhimov turnirin "Ruhun zəfəri" devizi altında təşkil olunduğunu deyib. Bildirib ki, bu deviz təsadüfi seçilməyib. Bu ifadə özündə sevgi, dostluq və bərabərliyi təcəssüm etdirir.

Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Azərbaycanda idmana göstərilən dövlət qayğısını yüksək qiymətləndirib və cüdoçularımızın beynəlxalq arenada qazandıqları nailiyyətlərdən danışıb. Turnirin əhəmiyyətini yüksək qiymətləndirən M.Vizer paracüdoçulara uğurlar arzulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanın çox zəngin cüdo tarixinin olduğunu vurğulayıb.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov cüdo üzrə beynəlxalq yarışların Azərbaycanda keçirilməsinə verdiyi dəstəyə görə Beynəlxalq Cüdo Federasiyasının prezidenti M.Vizerə təşəkkür edib. Nazir müavini ölkəmizdə idmanın inkişafı üçün dövlət tərəfindən mühüm addımların atıldığını diqqətə çatdırıb və paralimpiyaçılarımızın əldə etdikləri nailiyyətləri yüksək qiymətləndirib.

Qeyd edək ki, Heydər Əliyev adına İdman Sarayında keçirilən yarışda 35 ölkədən 214 cüdoçu birincilik uğrunda mübarizə aparır. Turnirdə ölkəmizi 21 cüdoçu təmsil edir. Qran-Pri Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandırır.



## Cüdoçularımız "Böyük dəbilqə" turnirini 7 medalla başa vurdu

Mayın 10-12-də Heydər Əliyev adına İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri keçirilib. Yarışın açılış mərasimində Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov idmanın dövlətlər və xalqlar arasında dostluq əlaqələrinin inkişafında mühüm rol oynadığını qeyd edib. Ölkəmizdə keçirilən bu nüfuzlu turnirin əhəmiyyətini xüsusi vurğulayan nazir deyib: "Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizdə mötəbər beynəlxalq idman turnirləri yüksək səviyyədə təşkil olunur. Birinci Avropa, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları Azərbaycanda uğurla keçirilib. Ötən ilin sentyabrında Bakıda 125 ölkədən 752 idmançının iştirakı ilə Tokio Yay Olimpiya Oyunlarına lisenziya xalları verən dünya çempionatı təşkil olunub".

*(ardı 2-ci səhifədə)*

## İkinci Avropa Oyunlarında 7 samboçumuz mübarizə aparacaq

Minskdə keçiriləcək ikinci Avropa Oyunlarının sambo yarışında Azərbaycanı 7 idmançı təmsil edəcək. Onlardan altısı kişi, biri isə qadındır.



İkinci Avropa Oyunlarında Ağasif Səmədov (52 kq), Mehman Xəlilov (57 kq), Cavidan Qarayev (62 kq), Emil Həsənov (68 kq), Abdulla Abdullayev (74 kq), Ceyhun Hüseynov (82 kq) və Gözəl Zutova (72 kq) mübarizə aparacaqlar.

Sambo yarışları iyunun 22-23-də keçiriləcək.

## Anons

*Güləşçilərimiz Ukraynadan uğurla qayıdıblar* Səh. 2

Ölkəmiz bədii gimnastika üzrə XXXV Avropa çempionatına ev sahibliyi edəcək Səh. 2

Dövlət Gömrük Komitəsinin qurumları arasında keçirilən futzal üzrə çempionata yekun vurulub Səh. 3

*Yelkənli qayıq yarışının qalibləri müəyyənləşib* Səh. 3

*Bəstələri ilə "Mənim dünyam" deyən gənc istedad* Səh. 4

Yeddinci "Zirvə Beynəlxalq Uşaq Oyunları"nın təntənəli açılış mərasimi keçirilib Səh. 4

"İdrak" liseyi gələcəyə işıq saçır Səh. 7

*Azərbaycan Premyer Liqasına yekun vuruldu* Səh. 7

Azərbaycan UEFA-nın Avropa Liqasının final oyununa hazırdır Səh. 7

## Olimpizm

### BOK prezidenti ustad dərsi keçib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Okeaniya səfəri çərçivəsində Papua-Yeni Qvineyada olub.

Səfər zamanı 65 yaşlı sabiq idmançı qılıncoynatma üzrə ustad dərsi keçib.

Xatırladaq ki, Tomas Bax Monreal-1976 Olimpiadasının rapira yarışlarında qızıl medala layiq görülüb. Bundan başqa almaniyalı idmançı dünya çempionatlarında 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb.

Tomas Bax 2013-cü ilin sentyabrından BOK-un prezidentidir.

### Tokio-2020 Olimpiadasında fərqli olacaq

Rusiya Olimpiya Komitəsinin (ROK) prezidenti Stanislav Pozdnyakov Tokio-2020 Olimpiadasına biletlərin məhdud olacağı qənaətindədir.

ROK prezidenti Pxenyan-2018 Olimpiadası ilə müqayisədə Tokio-2020 Olimpiadasında tribunaların dolu olacağını və hətta yarışlara biletlərin çatışmayacağını düşünür.

"Pxençxanda tamaşaçı az idi. Yaxşı yadımdadır ki, hokkey turnirinin finalında belə tribunada boş yerlər var idi. Tokioya gəlincə, buranın mədəniyyəti tamamilə fərqlidir. Orada boş yer olmayacaq və hətta bilet də çatmayacaq", - deyə Stanislav Pozdnyakov bildirib.

### Belarus Prezidenti II Avropa Oyunları ərəfəsində idman obyektləri ilə tanış olub

Belarus Prezidenti Aleksandr Lukaşenko Minskdə keçiriləcək II Avropa Oyunları ərəfəsində idman obyektləri ilə tanış olub.

İdmançıların və onların məşqçilərinin qalacağı "Tələbə kəndi" kompleksini ziyarət edən Belarus Prezidenti buradakı şəraitlə, qonaqların qidalanmasına hazırlıq prosesi ilə tanış olub.

Belarusun dövlət başçısına məlumat verilib ki, 15 idman kompleksində işlərin 99,9 faizi yekunlaşıb. A.Lukaşenko bildirib ki, idman yarışlarının keçirilməsi üzrə ölkənin zəngin təcrübəsi var və o, heç bir problemin olmayacağına əmindir. O, "Tələbə kəndi" kompleksində idmançıların yerləşəcəyi obyektlərin gələcəkdə Belarusda təhsil alan əcnəbi tələbələrin sərəncamına veriləcəyini də bildirib.

Qeyd olunub ki, bu kompleksdə idmançılara xidmət göstərilməsi məqsədilə 700 könüllü cəlb olunacaq. Mayın 13-dən kompleksə giriş məhdudlaşdırılacaq. "Tələbə kəndi" kompleksinin açılışı və idmançıların yerləşdirilməsinə isə iyunun 15-dən başlanılacaq.



## Cüdo federasiyaları arasında əməkdaşlıq memorandumu imzalanıb

Azərbaycanın və Səudiyyə Ərəbistanının Cüdo federasiyaları arasında əməkdaşlığa dair memorandum imzalanıb. Tədbirdə Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov çıxış edərək ölkəmizdə idmanın, xüsusən də cüdonun inkişafından, eləcə də, idmanın bu növü üzrə bir sıra mötəbər yarışların Azərbaycanda keçirilməsindən danışıb. Bildirib ki, ötən il cüdo üzrə dünya çempionatını yüksək səviyyədə keçirən Bakı bir neçə ildir "Böyük dəbilqə" turnirinə ev sahibliyi edir. Səudiyyə Ərəbistanı Cüdo Federasiyasının vitse-prezidenti Nabeel Mohammed Al-Hassan Azərbaycanın dünyanın idman ölkələri arasında xüsusi yerinin olduğunu bildirib. Azərbaycan cüdosunun inkişafından və cüdoçularımızın dünyanın ən güclülərindən olmasından məmnunluğunu vurğulayan qonaq bu əməkdaşlığın önəmini ifadə edib. O, Azərbaycanın təcrübəsindən uğurla yararlanacaqlarını söyləyib.

Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov bildirib ki, ölkəmizdə idmana göstərilən diqqət və qayğı nəticəsində bu sahə sürətlə inkişaf edir.

Görüşdə dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Sonda bütün yaş qrupları üzrə milli yığma komandaların birgə təlim-məşq toplanışlarının, turnirlərin və yoldaşlıq görüşlərinin, məşqçilər və hakimlər üçün birgə seminarların təşkili, təcrübə mübadiləsi layihələrinin hazırlanması və həyata keçirilməsi, müxtəlif yarışlarda təmsil olunmaq üçün zərurət yaranmış çəki dərəcələrində idmançı transferləri, tərəflərin üzv olduqları idman təşkilatlarının, eləcə də, idman məktəblərinin əməkdaşlığı və s. məsələlər barədə razılığa gəlinib.

## Azərbaycan ilə İran arasında gənclər və idman sahələrində əməkdaşlığın perspektivləri müzakirə olunub

*(əvvəli 1-ci səhifədə)*

İranın Azərbaycan üçün yaxın qonşu və dost ölkə olduğunu vurğulayan nazir diqqətə çatdırıb ki, buna görə də idmançılarımızın iştirak etdikləri turnirlərin keçirilməsinin bu sahədə əməkdaşlığın genişlənməsinə töhfəsini xüsusi vurğulayıb. Bildirib ki, dövlətlərimizin həmsərhəd olması idmançıların səfərləri üçün heç bir çətinlik yaratmır.

Mayın 29-da UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşmasının Bakıda keçiriləcəyini xatırladan nazir vurğulayıb ki, bu mötəbər idman hadisəsi ilə əlaqədar Azərbaycana 40 mindən çox avropalı futbol azarkeşi gələcək. Eləcə də, İrandan min nəfər bu qarşılaşmanı izləmək üçün Azərbaycana səfər edəcək.

Azad Rəhimov Azərbaycanın idman infrastrukturu haqqında məlumat verərək bildirib ki, Gənclər və İdman Nazirliyinin nəzdində idmançıların reabilitasiyası üçün müasir standartlara cavab verən klinika yaradılıb. İranlı idmançılar da bu klinikada reabilitasiya kurslarına cəlb oluna bilərlər.

Müasir idmanda dopinq problemindən danışan nazir Bakıda Azərbaycan Milli Antidopinq Agentliyinin təsis olunduğunu bildirib və bu sahədə də əməkdaşlığı əlaqələrinin qurulmasını təklif edib. Bununla yanaşı, iranlı tələbələrin də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil almaları üçün lazımi şəraitin olduğu da diqqətə çatdırılıb. Nazir İranın "Persopolis" futbol komandası ilə Azərbaycanın "Qarabağ" komandası arasında yoldaşlıq görüşünün keçirilməsi təklifini irəli sürüb. Qeyd olunub ki, hər iki ölkənin futbol komandalarının birgə təlim-məşq toplanışının keçirilməsi üçün Azərbaycanda əlverişli şərait var.

Dövlət gənclər siyasəti haqqında məlumat verən Azad Rəhimov bildirib ki, gənclərlə iş sahəsində əməkdaşlıq zəruridir. Bu əməkdaşlıq üçün gənclər təşkilatlarının qarşılıqlı səfərlərini, "Dostluq həftələri" təşkil etmək və təcrübə mübadiləsi aparmaq lazımdır. İranın idman və gənclər naziri Məsud Soltanifər təkliflərə görə təşəkkürünü bildirib, 2008-ci ildə nazirliklər arasında imzalanmış Anlaşma Memorandumunun müddətinin 2021-ci ilədək uzadılmasının önəmini vurğulayıb. O, 15 il əvvəl vitse-prezident vəzifəsində çalışdığı dövrdə və 2018-ci ildə Azərbaycana etdiyi səfərləri xatırlayıb. Azərbaycanın sürətlə inkişaf etdiyini, Bakının simasının dəyişdiyini və ölkəmizə çoxlu sayda turistin üz tutduğunu vurğulayan M.Soltanifər bildirib ki, paytaxtla yanaşı, Gəncə və Qəbələ şəhərləri də inkişaf edib. Bu inkişaf bizi sevindirir. Futbol üzrə UEFA Avropa Liqasının final matçının Bakıda keçirilməsinin böyük uğur və tarixi hadisə olduğunu vurğulayan M.Soltanifər bu münasibətlə Azərbaycan xalqını və dövlətini təbrik edib. O, rəhbərlik etdiyi nazirliyin fəaliyyəti haqqında məlumat verərək bildirib ki, hər iki xalq ortaq tarixə, mədəniyyətə və adət-ənənəyə malikdir. Buna görə də tarixi idman oyunları üzrə turnirin keçirilməsi zəruridir. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb. Sonra hər iki nazir mətbuat nümayəndələrinin suallarını cavablandırıb. Həmin gün Azad Rəhimov İranın Milli Olimpiya Komitəsinin sədri Salehi Əmiri ilə də görüşüb. Görüşdə əməkdaşlıq əlaqələrinin perspektivləri, birgə tədbirlərin və layihələrin həyata keçirilməsi, təcrübə mübadiləsinin aparılması məsələləri müzakirə edilib. Nazir A.Rəhimov İran Milli Olimpiya Komitəsinin Paralimpiya Akademiyası və "Azadi" İdman Kompleksi ilə tanış olub.

Görüşlərdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

## *Ölkəmiz bədii gimnastika üzrə XXXV Avropa çempionatına ev sahibliyi edəcək*



Paytaxt Bakı may ayında bədii gimnastika və aerobika üzrə Avropa çempionatına ev sahibliyi edəcək.

Azərbaycan Gimnastika Federasiyasının (AGF) təşkilatçılığı ilə keçiriləcək bədii gimnastika üzrə Avropa çempionatı mayın 16-19-na, aerobika gimnastikası üzrə Avropa çempionatı isə mayın 24-26-na təsadüf edəcək.

Məlumat üçün bildirək ki, bədii gimnastika üzrə Avropa çempionatı ölkəmizdə 4-cü (2007, 2009, 2014 və 2019-cu il) dəfədir ki, təşkil olunur.

Dörd gün davam edəcək Avropa çempionatının fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənc komandalar çıxış edəcəklər. Yarışın ilk günündə gənclərdən ibarət qrup komandaları mübarizə aparacaqlar. Ertəsi gün böyük gimnastlar xalça üzərində öz güclərini sınayacaqlar. Çempionatın üçüncü günündə komanda hesabında (böyük gimnastlar və gənc komandaların ortaq xalları əsasında) və qrup komandalarının çoxnövçülük yarışlarında qaliblərin adları açıqlanacaq. Turnirin sonuncu günündə isə ayrı-ayrı alətlər üzrə Avropanın ən yaxşı gimnastları müəyyənləşəcək.

Qeyd edək ki, qitə çempionatında 35 ölkədən gimnastların iştirakı gözlənilir.

Kiyevdə Ukraynanın tanınmış güləşçilərinin və məşqçilərinin xatirəsinə keçirilən beynəlxalq turnirə yekun vurulub.

Yarışın sonuncu günündə yunan-Roma güləşi üzrə yığmamız 4 medal qazanıb. Sakit Quliyev (60 kq) gümüş, Murad Bazarov (60 kq), Kərim Cəfərov və Elman Muxtarov (hər ikisi 67 kq) isə bürünc medalın sahibi olublar.

## Güləşçilərimiz Ukraynadan uğurla qayıdıblar

Bununla da millimizin qazandığı medalların sayı 6-ya çatıb. Belə ki, yarışın ilk günündə Sənan Süleymanov (72 kq) qızıl, Zamir Məhəmmədov (97 kq) isə bürünc medal əldə etmişdi.

Xatırladaq ki, Memorialda beynəlxalq dərəcəli hakim Natiq Hacıyev ədaləti qoruyub.




## Cüdoçularımız "Böyük dəbilqə" turnirini 7 medalla başa vurdu

*(əvvəli 1-ci səhifədə)*

Beynəlxalq Cüdo Federasiyasının idman direktoru Vladimir Barta yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə Azərbaycan Cüdo Federasiyasına minnətdarlığını bildirib.



Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev "Böyük dəbilqə" turnirinin yüksək səviyyədə keçəcəyinə əminliyini bildirib və cüdoçulara uğurlar arzulayıb. Federasiya prezidenti yarışı açıq elan edib.

Sonra Azərbaycan Respublikasının dövlət himni və Beynəlxalq Cüdo Federasiyasının himni səsləndirilib.

Daha sonra ümummilli lider Heydər Əliyevin idmana diqqət və qayğısını əks etdirən, dahi şəxsiyyətin idmanla bağlı fikirlərinin yer aldığı, eləcə də, Azərbaycan idman uğurlarına həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

"Böyük dəbilqə" beynəlxalq turnirində 56 ölkədən 431 (256 kişi, 175 qadın) cüdoçu mübarizə aparıb. Turnirdə ölkəmizi 28 kişi və 15 qadın cüdoçu təmsil edib.

Yarışın ilk günündə cüdoçumuz Nicat Şıxəlizadə komandamıza gümüş medal qazandırıb. 66 kq çəki dərəcəsində mübarizə aparan idmançımız finalda Moldova təmsilçisi Denis Vieru ilə görüşdən məğlub ayrılıb.

Turnirin ikinci günündə kişilər 73 kq və 81 kq, qadınlar isə 63 kq və 70 kq-da bacarıqlarını nümayiş etdiriblər.

Azərbaycan cüdoçularından Hidayət Heydərov (73 kq) böyük əzmkarlıq nümayiş etdirərək finala qədər irəliləyib. Həlledici mərhələdə də inamlı təsir bağışlayan idmançımız rəqibi, İsrail təmsilçisi Tohar Butbulu məğlub edib və mötəbər turnirin qalibi adını qazanıb. Bu çəkidə çıxış edən Rüstəm Orucov və Telman Vəliyev isə bürünc medala layiq görülüblər.

Yarışın sonuncu günündə Azərbaycan cüdoçuları daha 3 medala sahib olublar. İdmançılarımızdan Məmmədəli Mehdiyev "Böyük dəbilqə" turnirinin gümüş medalına yiyələnib. 90 kq çəki dərəcəsində çıxış edən cüdoçumuz ardıcıl olaraq Avtandili Tçrikişvili, türkiyəli Mert Şişmanlar, hollandiyalı Yesper Smink və macarıstanlı Kristian Tot üzərində qələbə qazanıb və finala yüksəlib. Təmsilçimiz həlledici qarşılaşmada 2017-ci ilin serbiyalı dünya çempionu Nemanya Maydova məğlub olub. Digər cüdoçularımız Zelim Kotsoyev (100 kq) və İrina Kindzerska (+ 78 kq) isə bürünc medala layiq görülüblər.

Bununla da cüdoçularımızın qazandıqları medalların sayı yeddiyə yüksəlib.

Beləliklə, Azərbaycan millisi (1qızıl, 2 gümüş, 4 bürünc) ümumi komanda hesabında Yaponiya və Braziliyadan sonra üçüncü yeri tutub.



## Atletlər Bakı birinciliyində yarışıblar

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda 2004-2005-ci illər təvəllüdlü yeniyetmələr arasında atletika üzrə Bakı birinciliyi keçirilib.

Yarışda 8 komandadan 100 atlet iştirak edib. Çempionatda atletlər 100, 200, 400, 800 və 1500 metr məsafələrə qaçış, uzunluğa, hündürlüyə və üçtəkanla tullanma, eləcə də, nüvəitələmə, lövhə atma yarışlarında qüvvələrini sınayıblar.

Yarışlarda oğlanlar arasında uzunluğa tullanmada Kəsgin Abbaszadə, üçtəkanla tullanmada Emil İlyasov, hündürlüyə tullanmada Nikita Neftyakov, lövhə atmada Nihad Qurbanzadə, nüvəitələmədə Şakir Azakov qalib adını qazanıblar. Qızlar arasında isə uzunluğa və üçtəkanla tullanmada Aysel Mehrəliyeva, hündürlüyə tullanmada Alisa Xocayeva, nüvəitələmədə Aysun Əhmədova birinci yerə layiq görülüblər.

Qaçış növləri üzrə oğlanların yarışında Kəsgin Abbaszadə (100 m), Elcan Cəfərov (200 m), İbrahim Orucov (400 m, 800 m), Mahmud Mehdiyev (1500 m) birinci yerdə qərarlaşıblar. Qızların yarışında isə Samirə Cəbrayılzadə (100 m), Nilufər Şabanlı (200 m), İradə Əliyeva (400 m, 800 m) birinci olublar.

Çempionat Gənclər və İdman Nazirliyinin və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

## Qran-Pri turnirində iki cüdoçumuz yarışacaq

İyulun 12-14-də Budapeştdə keçiriləcək Qran-Pri turnirində Azərbaycanın iki qadın cüdoçusunun iştirakı dəqiqləşib.

Cüdoçularımız Larisa-Aleksandra Florian (57 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) Macarıstanda qüvvələrini sınayacaqlar.

İndiyədək 13 ölkədən 50-yə yaxın idmançı Budapeşt turnirinə qatılacağını təsdiqləyib.

## Basketbolçumuz Fransa çempionatında fərqlənib

Gənc basketbolçulardan ibarət Azərbaycan millisinin üzvü Endər Poladxanlı Fransa çempionatında birinci olub.

Basketbolçumuzun çıxış etdiyi "Şole" sonuncu - XXXII turda "Asvel"ə 88:84 hesabı ilə qalib gəlib.

Çempionat ərzində 31 qələbə qazanan və 1 dəfə uduzan "Şole" gənclər arasında Fransa çempionatının qalibi adına sahib olub.

Qeyd edək ki, sonuncu turda basketbolçumuz komandasına 3 xal qazandırıb.

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş şahmat turniri



Praqa şəhərində Azərbaycanın Çex Respublikasındakı səfirliyinin təşkilatçılığı və “City Building” şirkətinin sponsorluğu ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş həvəskarlar arasında beşinci ənənəvi beynəlxalq şahmat turniri keçirilib.

Turnirdə Çexiya, Slovakiya, Ukrayna, Azərbaycan və digər ölkələrdən olan həvəskar şahmatçılar iştirak ediblər.

Turnirin açılışında ölkəmizin Çex Respublikasındakı müvəqqəti işlər vəkili Etibar Abdullayev çıxış edərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərindən danışıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev sözügedən turnirin əsasının Çexiyada səfir kimi fəaliyyət göstərdiyi dövrdə qoyulduğunu və mütəmadi şəkildə keçirildiyini, habelə bu ənənənin artıq uzun illər davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Turnirdə hakim qismində Beynəlxalq Şahmat Federasiyasının (FİDE) nümayəndəsi Aleksey Şimeçek iştirak edib. Turnirin keçirildiyi salonda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr edilmiş kitab və jurnallar təqdim olunub. Turnirin sonunda qaliblər müvafiq medal və hədiyyələrlə təltif ediliblər.

* * *

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Respublikasının Monteneqrodakı Diplomatik Nümayəndəliyinin, Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşəbbüsü və təşkilatçılığı, Azmont Investments şirkətinin dəstəyi ilə şahmat üzrə “Heydər Əliyev kuboku” turniri keçirilib.

Turniri Monteneqrodakı Diplomatik Nümayəndəliyimizin müşaviri Anar Ələmov açaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətlərindən danışıb. Natiq diqqətə çatdırıb ki, 1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə gələn ulu öndər Azərbaycanı dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Azərbaycan xalqı bu dahi şəxsiyyətin xidmətlərini heç vaxt unutmayacaq.

Turnirdə Monteneqronun yığma və olimpiya komandalarının üzvləri, tanınmış şahmatçıları - qrossmeysterlər, beynəlxalq ustalar və FİDE ustaları iştirak ediblər.

“Heydər Əliyev kubokunu” Nikola Cukiç qazanıb.

Böyük maraq doğuran turnir yerli KİV-də geniş işıqlandırılıb.

* * *

İyulun 2-dən 10-dək Bakıda beynəlxalq şahmat festivalı keçiriləcək.

“Baku Summer” festivalında şahmatçılar A (master), B (open), C (uşaq turniri (U-12), D (rapid) və E (blitz) turnirlərində mübarizə aparacaqlar. Festivalın ümumi mükafat fondu 3 min manat təşkil edəcək.

## Dövlət Gömrük Komitəsinin qurumları arasında keçirilən futzal üzrə çempionata yekun vurulub

Mayın 9-da Azərbaycan Texniki Universitetinin idman zalında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı və gömrük xidmətinin yaradılmasının 27-ci ildönümünə həsr olunmuş futzal idman növü üzrə gömrük orqanları arasında ənənəvi çempionatın final mərhələsi başa çatıb.

Qeyd edək ki, çempionatın təşkilində əsas məqsəd gömrük orqanlarında çalışan əməkdaşların sağlamlığının və fiziki hazırlığının inkişaf etdirilməsi, kütləviliyin təmin edilməsidir.

Xatırladaq ki, yarışda ümumilikdə, iki qupda 12 komanda dairəvi sistem üzrə mübarizə aparıb. A qrupunda Gömrük Hospitalı, “Azərterminal-kompleks” Birliyi, Sumqayıt Baş Gömrük İdarəsi, Cənub Baş Gömrük İdarəsi, Aksizli mallar üzrə Baş Gömrük İdarəsi, Şimal Ərazi Baş Gömrük İdarəsi, B qrupunda isə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Qərb Ərazi Baş Gömrük İdarəsi, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı Baş Gömrük İdarəsinin komandaları iştirak edib. Çempionatın birinci mərhələsi dairəvi, ikinci (dörddəbir) və üçüncü (yarımfinal) mərhələsi isə Olimpiya sistemi əsasında keçirilib.



Final mərhələsində üçüncü yer uğrunda Bakı Baş Gömrük İdarəsinin komandası Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin komandası ilə qarşılaşıb. 4:3 hesabı ilə qalib gələn Bakı Baş Gömrük İdarəsinin komandası bürünc medal qazanıb. Həlledici qarşılaşmada Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası üz-üzə gəlib. 6:1 hesabı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası qalib adını qazanıb. İkinci pillədə isə müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin komandası qərarlaşıb.

Çempionatın bağlanış mərasimində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, AFFA-nın İcraiyyə Komitəsinin üzvü, Regional Futbol Federasiyasının prezidenti İsgəndər Cavadov çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Azərbaycanda bütün sahələrə, o cümlədən, idmanın inkişafına daim diqqət və qayğı göstərilir. Bölgələrdə gənclərin idmana axını, ölkəmizdə mötəbər idman yarışlarının təşkili, bu işlərin geniş vüsət alması dövlətin bu sahəyə verdiyi yüksək dəyərin bariz nümunəsidir. Qeyd olunub ki, bu çempionat gömrükçülərin həm xidməti, həm də idman həyatında əlamətdar hadisədir.

Çempionatda ilk üç yeri tutmuş komandaların üzvləri müvafiq kubok, diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar. Dördüncü yeri tutmuş komandaya fəxri diplomlar təqdim olunub. Oyunlar zamanı fərqlənmiş Məhəmməd Mehdiyev “ən əzmkar oyunçu”, Orxan Məmmədov “ən məhsuldar oyunçu”, Zaur Əsədov “ən texnikalı oyunçu”, Elmar Cəfərov “ən yaxşı yarımmüdafiəçi” Həsən Göyüşov “ən yaxşı müdafiəçi”, Rahil Tahirli “ən yaxşı qapıçı” adına layiq görülüblər. Anar Fərəcov və Nizami Şərifov çempionatın “ən yaxşı hakimləri” seçiliblər. Azərbaycan Texniki Universitetinin rektoru Xalıq Yahudov, Azərbaycan Respublikası Dövlət Dömrük Komitəsi komandasının üzvü Rəşad Məmmədov, AFFA-nın İcraiyyə Komitəsinin üzvü, Regional Fubol Federasiyasının prezidenti İsgəndər Cavadov, 2 nömrəli RİOEUGİM-in direktoru Əjdər Cəfərov çempionatın keçirilməsində yaxından əməkdaşlıq etdiklərinə görə xatirə medalları ilə təltif olunublar. Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası tərəfindən təsis edilmiş mükafatlar da sahiblərinə təqdim olunub. Gündüz Qəmbərov “Ədalət prinsiplərinə sadiq idmançı”, Müslüm Hüseynov “Ədalət prinsiplərinə sadiq məşqçi”, Elmir Quluzadə “Ədalət prinsiplərinə sadiq hakim” nominasiyaları üzrə mükafatlandırılıblar.

**Çempionatın nəticələri:**

**27 aprel (Dörddəbir final)**

1. “Azərterminalkompleks” Birliyi-Hava Nəqliyyatında Baş Gömrük İdarəsi - 2:3

2. Sumqayıt Baş Gömrük İdarəsi-Bakı Baş Gömrük İdarəsi - 2:5

3. Aksizli mallar üzrə Baş Gömrük İdarəsi-Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi - 4:9

4. Şimal Ərazi Baş Gömrük İdarəsi-Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi - 3:5

**28 aprel (yarımfinal)**

1. Hava Nəqliyyatında Baş Gömrük İdarəsi-Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi - 1:5

2. Bakı Baş Gömrük İdarəsi-Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi - 2:3

**9 may (final)**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi-Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi - 1:6

2. Hava Nəqliyyatında Baş Gömrük İdarəsi-Bakı Baş Gömrük İdarəsi - 3:4

## Yelkənli qayıq yarışının qalibləri müəyyənləşib



“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC (ASCO) və Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş yelkənli qayıq yarışı (“Baku Sailing Regatta-2019”) keçirilib.

Ümumilikdə, 30 yelkənçinin iştirak etdiyi reqatada idmançılar dörd sinif (“Optimist”, “Laser-standard”, “Laser-radial”, “Laser 4.7”) üzrə yarışıblar. Onlar “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Xəzər”, “CMS properties” şirkətinin “Dənizçi” idman klubları, Azərbaycan Yelkənli İdman Federasiyasının üzvləridirlər.

Yarışın təşkilində məqsəd idmanın bu növünə marağı artırmaq və sağlam həyat tərzini gənclər arasında təbliğ etməkdir.

Yarış çərçivəsində Dənizkənarı Milli Parkda müxtəlif əyləncəli proqramlar, oyunlar və viktorinalar da keçirilib.

Qaliblər yerli və beynəlxalq hakimlər tərəfindən müəyyənləşdirilib. I, II və III yerlərin sahibləri mükafatlandırılıb.

Mükafatları gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədrinin müavinləri Nəzrəddin Əhmədzadə və Cəbrayıl Mahmudlu, Azərbaycan Yelkənli İdman Federasiyasının prezidenti Qüdrət Qurbanov təqdim edib.

“Optimist” sinfi üzrə ümumi yarışda I, II və III yerləri müvafiq olaraq AYİF-in üzvləri Murad Hacızadə, Ayla Babayeva və Kristina Kərimova tutublar. “Optimist” sinfi üzrə qızlar arasında yarışda isə Ayla Babayeva, Kristina Kərimova və Fidan Ağazadə ilk üçlükdə təmsil olunublar. “Laser-standard” sinfi üzrə “Xəzər” idman klubunun üzvü Mixail Protasov, “Dənizçi” idman klubunun üzvü Nikita Vilayev və “Xəzər” klubunun üzvü Roman Fərruxov müvafiq olaraq I, II və III yerlərə layiq görülüblər. “Laser 4.7” sinfi üzrə I, II və III yerləri AYİF-in üzvləri İsmayıl Kərimov, Murad Allahverdi və Fəqan Məmmədzadə qazanıblar. “Laser-radial” sinfi üzrə AYİF-in üzvü Cavid Kərimov I yeri, “Xəzər” idman klubunun üzvləri Vaqif Qasımov və Rauf Abdullayev II və III yeri tutublar.

Azərbaycan Yelkənli İdman Federasiyasının prezidenti Qüdrət Qurbanov qalibləri təbrik edib, gələcək yarışlarda uğurlar arzulayıb.

Qeyd edib ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan bu yarış ənənə halını alacaq. Gənclərin və azyaşlıların bu idman növünə maraq göstərməsi də yelkənli qayıq yarışının əhəmiyyətini artırır.

Yelkənli qayıq yarışı ikinci ildir ki, təşkil olunur. Keçirilən reqata həm paytaxt sakinlərinin, həm də turistlərin böyük marağına səbəb olub.

## Məktəblilər həndbol yarışlarında bir araya gəliblər

Səbail rayon məktəbliləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan həndbol turnirinə yekun vurulub.

“ABU Arena”da keçirilən yarışda rayonun 10 təhsil ocağının komandası mübarizə aparıb.

İki gün davam edən turnirin finalında 160 nömrəli klassik gimnaziya və 236 nömrəli orta məktəbin şagirdləri bacarıqlarını göstəriblər.

Daha yaxşı oyun nümayiş etdirən gimnaziyaçılar 10:2 hesablı qələbə ilə turnirin qalibi adını qazanıblar. Üçüncü yer uğrunda görüşdə isə 49 nömrəli İntellekt liseyin komandası 51 nömrəli orta məktəbin şagirdlərinə 2:1 hesabı ilə qalib gəlib. Fərqlənən komandaların üzvlərinə diplom, medal və hədiyyələr təqdim olunub.

Mükafatlandırma mərasimində Azərbaycan Həndbol Federasiyasının vitse-prezidenti Orxan Abbasov yeniyetmələrdə həndbola marağın artırılması, kütləviliyin təmin olunması baxımından bu cür turnirlərin əhəmiyyətini yüksək qiymətləndirib.

Qeyd olunub ki, yarış Azərbaycan Həndbol Federasiyası və Səbail Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib.

## Samboçularımız qitə çempionatına yollanırlar

Mayın 16-20-də İspaniyanın Xixon şəhərində kişilər və qadınlar arasında idman və sambo döyüşü üzrə Avropa çempionatı keçiriləcək.

Ölkəmizi qitə yarışında idman sambosu üzrə 5, döyüş sambosu üzrə 1 idmançı təmsil edəcək. Nəsimi Umbayev (52 kq), Eyvaz Baxşıyev (57 kq), Fərid Mikayılov (68 kq), Samir Kərimov (74 kq), Çingiz Ramazanov (100 kq) idman, Bəxtiyar Abbasov (82 kq) isə döyüş sambosu yarışlarında mübarizə aparacaqlar.

## Bakı-Tbilisi Ultra Marafonu Gürcüstan paytaxtında başa çatıb

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş Bakı-Tbilisi Ultra Marafonu mayın 10-da Gürcüstan paytaxtındakı Heydər Əliyev parkında başa çatıb.

Mayın 5-də Bakıdan, Bayraq Meydanından start götürən marafonçu Yadigar Hüseynov 544 km yol qət edib.

Tbilisinin mərkəzindəki Heydər Əliyev parkında marafonçunu Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, səfirliyin əməkdaşları və ictimaiyyət nümayəndələri gül-çiçəklə qarşılayıblar.

Y.Hüseynov ümummilli liderin büstünü ziyarət edib, abidə önünə gül dəstələri düzüb.

Y.Hüseynov jurnalistlərə bildirib ki, marafonun məqsədi Heydər Əliyev şəxsiyyətini təbliğ etməkdir. O, estafeti gənc nəslə verdiyini vurğulayıb və bildirib ki, gənclər ulu öndərin xatirəsini yaşatmalıdırlar.

O, bu böyük idman layihəsinə dəstək verən hər kəsə təşəkkürünü bildirib.

Məlumat üçün qeyd edək ki, Heydər Əliyev Fondunun, Gənclər və İdman Nazirliyinin, Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı və “Regional İnkişaf” İctimai Birliyinin dəstəyi ilə keçirilən ultra marafon ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunub.

Marafon, həmçinin Azərbaycan və Gürcüstan arasındakı dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət edir.

— İdmandan kənar —

# Bəstələri ilə "Mənim dünyam" deyən gənc istedad

İdmanın və Olimpiya Hərəkatının təbliğatında müstəsna rolu olan "Olimpiya dünyası" qəzeti ölkənin adını yüksəldən və şərəfini layiqincə qoruyan idmançıları daim diqqətdə saxlayır. Öz səhifələrində həmin idmançıların nailiyyətləri barəsində çoxsaylı oxucularına geniş məlumatlar çatdırır. "Olimpiya dünyası" qəzeti bu dəfə adlı-sanlı idmançıdan deyil, bir fortepiano ifaçısından bəhs edən müsahibə ilə oxucuların görüşünə gəlib. Müsahibimiz idmançılar kimi öz sənətinin olimpinə yüksəlməyi qarşısına məqsəd qoyan gənclərdən biridir. Hər bir sahədə Olimp kimi böyük zirvə var. Həmin zirvəyə yalnız istəkli, həvəsli və istedadlı insanlar yüksəlir, o zirvənin sakini olur. Hamıya məlumdur ki, gələcək gənclərin əlindədir. Bəli, bir millətin sabahı yalnız sağlam və istedadlı gənclərin sayəsində işıqlı olur. Müsahibimiz Kamil Həsənov gənc olmasına baxmayaraq, qısa zaman ərzində böyük uğurlar əldə edib. Belə ki, o, respublika və beynəlxalq müsabiqələr laureatı, Prezident təqaüdçüsüdür. 1996-cı il avqustun 1-də İmişli rayonunda anadan olan Kamil ailəsi ilə birlikdə Bakıya köçəndən sonra Rauf Hacıyev adına 15 saylı musiqi məktəbində musiqi təhsili alıb. Məhz həmin vaxtdan etibarən böyük uğurları ilə diqqətçəkən gənclərdən birinə çevrilib. Onunla redaksiyamızda görüşüb, söhbət etdik. Müsahibimiz ona ünvanlanan suallari səmimi cavablandırdı.

*- Kamil, necə oldu ki, musiqiyə bu qədər bağlılıq yarandı?*

- Atam gitara ifaçısı olub. Yəqin ki, elə musiqiyə həvəs də mənə atamdan keçib. Hər gün evdə atamın gitarası ilə oynayırdım. Həmin vaxt 4 yaşım olardı. Ailəmiz isə böyük qardaşımın musiqiçi olmasını istəyirdi. Bir gün evdə



həmişəki kimi, gitara ilə oynayan zaman qonşumuz mənə yaxınlaşdı. Musiqi duyumumu yoxladı və valideynlərimə istedadımın olduğunu dedi. Bundan sonra atam mənə sintezator aldı. 6 yaşımdan məni musiqi məktəbinə yazdırdılar. Musiqi məktəbinə qəbul olarkən, notdan xəbərsiz olsam da, bilmədən 4-5-ci siniflərin proqramını bilirdim.

## "Özümü klassikada daha xoşbəxt hiss edirəm"

*- Gənc yaşda bu qədər uğurlar əldə etməyinin sirri nədədir?*

- Musiqi həddindən artıq böyük zəhmət tələb edir. Gün ərzində 6-7 saat musiqi ilə məşğul olurdum. Atamın arzusu məni bir musiqiçi kimi böyük səhnədə görmək idi. Çalışdım ki, atamın bu arzusunu həyata keçirim. Bunun üçün qarşıma məqsəd qoydum. Məqsədimə nail olmaq üçün hər gün çoxlu məşq etdim. Doğrudan da, məqsəd və inam insanı böyük qələbələrə aparır. Tezliklə atamın bu arzusunu həyata keçirdim. Rəşid Behbudov Adına Mahnı Teatrında təşkil olunan konsert proqramlarında çıxış etdim. Bir gün televiziyada prezident təqaüdçüləri haqqında kadrlar göstərirdilər.



Atam mənə dedi ki, oğlum bax, mən də çox istəyərəm ki, sən də prezident təqaüdçüsü olasan. Bundan sonra qarşıma yenidən məqsəd qoydum və bu arzuma da çatdım. 2010-cu ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidentinin qərarı ilə adım Azərbaycan Respublikasının Qızıl kitabına yazıldı və Prezidentin xüsusi təqaüdünə layiq görüldüm. Bu, mənim üçün ən böyük uğur idi. Bununla atamın ən böyük arzularından birini həyata keçirmiş oldum. Bundan sonra isə orkestrlə konsert proqramlarında çıxış etdim.

*- Ölkəmizi beynəlxalq müsabiqələrdə də təmsil etmisən və böyük uğurlar əldə etmisən.*

- Bəli. Azərbaycanın hüdudlarından kənarda ölkəmizi yüksək səviyyədə təmsil etmişəm. Dəfələrlə beynəlxalq müsabiqələrdə qalib olmuşam. 2007-ci ildə Krımda təşkil olunan festivalda qalib gələrək, birinci yeri tutdum. Həmin vaxtı 11 yaşım var idi. 2009-cu ildə isə Gürcüstanda təşkil olunan gənc pianoçuların beynəlxalq müsabiqəsində bürünc medala sahib çıxdım. Elə həmin il Suriyada "Solhi Əlvadi" adına beynəlxalq müsabiqədə bürünc medala layiq görüldüm. 2012-ci ildə isə Macarıstanın paytaxtı Budapeştdə gənc pianoçuların beynəlxalq müsabiqəsində birinci yeri tutdum. Bundan başqa bir sıra respublika müsabiqələrinin dəfələrlə qalibi olmuşam. Azərbaycanda təşkil olunan İslam ölkələri arasında beynəlxalq müsabiqədə ikinci yerə layiq görülmüşəm. Mədəniyyət və Turizm, Gənclər və İdman Nazirliyinin təşkil etdiyi müxtəlif tədbirlərdə uğurla çıxış etmişəm.

## "Bəzən öz bəstələrimi qısqanıram"

*- Bildiyimizə görə, toy məclislərinə getmirsiniz. Bunun səbəbi nə ilə bağlıdır?*

- Klassik ifaçı olduğum üçün klassikadan kənara çıxmağı sevmirəm. Özümü klassikada daha xoşbəxt hiss edirəm. Akademik musiqilərə qulaq asdıqca ruhum dincəlir. Bunun üçün də toy məclislərindən imtina edirəm.

*- Bir neçə bəstənin müəllifisən. Sənə ən çox uğur gətirən bəstən hansıdır?*

- "Mənim dünyam". Bu bəstə mənim daxili aləmimi, xarakterimi, dəyişkən duyğularımı ifadə edir. Burada hərdən əsəbi, hərdən sakit hisslərimi, romantikanı, səssizliyi və özüməinamı görmək olar. Bundan başqa "Xəyalım" və "Hər an" musiqisi də mənim ən uğurlu bəstələrimdən biridir. Uşaq vaxtı yazdığım bir neçə bəstəm var idi ki, onların notlarını evimizi dəyişən zaman itirdim. Bu hadisəyə görə çox məyus olmuşdum. Həmin bəstələrin üzərində çox əziyyətlər çəkmişdim. Hətta deyərdim ki, itirdiyim bir neçə bəstə var idi ki, onlara ad qoymamışdım.

*- Maraqlıdır, nəyə görə?*

- Bilmirəm. Düzünü desəm, bəstələrimə ad qoymağa risk etmirdim. İstəmirdim onlara ad qoyum. Həmişə istəmişəm ki, bütün bəstələrimi "mənim mahnım", "mənim dünyam" adlandırım. Nə qədər qəribə səslənsə də, hətta deyərdim ki, bəzən öz bəstələrimi qısqanıram.

*- Bu qısqanclığın səbəbi nədən irəli gəlir?*

- Yəqin, çox yaxşı bəstələmişəm ona görə. Həmişə qorxmuşam ki, bəstələrim bir gün məni üstələyər.

## "Hərdən elə musiqilər eşidirsən ki..."

*- Bəstələrini kimlərsə ifa edibmi?*

- Xeyr. Bu barədə heç kimə təklif də etməmişəm.

*- Bəstələdiyin musiqilərin əsas qayəsi nədən ibarətdir?*

- Daha çox sevgi-məhəbbət mövzusu.

*- Həzin musiqi insanın daxili aləmini sakitləşdirir, ona müsbət enerji verir. Yəqin ki, səndə də bu belədir.*

- Bəli. Hər gün öz bəstələrimi ifa edirəm. Fikirli olduğum halda həmin musiqiləri ifa edərək rahatlıq tapıram. Bir növ musiqi ilə dərdləşirəm. Bilirsiniz, musiqi psixoloq kimidir. İnsanın ən duyğulu, ən qəmgin vaxtlarında belə, səni düşdüyün situasiyadan çıxarır.

*- Bəs, belə hallarda öz musiqilərindən başqa hansısa musiqiləri ifa edirsən?*

- Əsasən fəlsəfi musiqiləri sevirəm. Yəni çalışıram ki, həmin musiqiyə qulaq asanda və ya ifa edəndə, hansısa fikrin izahatını tapım. Sadəcə, boş-boşuna musiqi olmasın, dinləyiciyə hər hansısa bir fikir çatdırılsın. Hərdən elə musiqilər eşidirsən ki, əvvəli ilə sonu bilinmir. Hər şey bir xətt üzrə gedir. Bu isə insanı yorur. Lakin elə musiqi də var ki, hər hissəsində dinləyiciyə müəyyən fikir çatdırır.

*- Maraqlıdır, hazırda nə işlə məşğulsan?*

- Azərbaycan Dövlət Akademik Musiqili Teatrında konsertmeyster vəzifəsində çalışıram. Tamaşalarda aktyorlarla, rejissorlarla işləyirəm. Məşq zamanı orkestrin ifa etdiyi musiqi nömrələrini ifa edirəm. Eləcə də yeni premyera musiqiləri olanda, aktyorlara və aktrisalara həmin musiqiləri öyrədirəm. Yəni həm ifa edirəm, həm də öyrədirəm. Hazırda yeni premyera - "Paris Notr-Dam" üzərində çalışıram.

*- Hansı xarici musiqiçilərə qulaq asırsan?*

- Əsasən "Bitlz"ə, "Eniqma"ya, Yanniyə. Əslində tək eyni janrlara qulaq asmağı sevmirəm. Çünki eyni musiqiyə qulaq assam, zövqüm inkişaf etməz. Bunun üçün klassikləri və dünya estradasının musiqilərini də dinləyirəm.

*- Azərbaycan musiqisinin böyük keçmişi var. Bu gün bütün müğənnilər klassiklərdən bəhrələnirlər. Tofiq Quliyev, Emin Sabitoğlu, Vaqif Mustafazadə, Fərhad Bədəlbəylidən sonra hansı nəsil yetişir?*

- Bu gün yetərincə gənc bəstəkarlarımız var. Onlardan dünyasını dəyişən də var, hələ ömrünü davam etdirən də. Bakı Musiqi Akademiyasının elə məzunlarını tanıyıram ki, onların bəstələri həqiqətən də çox gözəldir. Bu günlərdə Bakı Musiqi Akademiyasının bəstəkarlar kafedrasının müdiri Arif Məlikov dünyasını dəyişdi. Bu, Azərbaycan musiqisi üçün böyük itki oldu. Amma Arif müəllimin yaradıcılığı bir örnəkdir. Daim yaşayacaq. Onu gələcək nəsillərə çatdırmaq bizim üzərimizə düşür.

*- İstənilən idman tədbirinin özünəməxsus musiqisi olur. Bu sahəyə peşəkar musiqiçiləri dəvət edirlər. Nə vaxtsa belə bir təklif gələrsə necə qarşılayarsan?*

- Müsbət qarşılayaram. Gələcək planlarımdan biri vətənpərvərlik mövzusunda musiqi bəstələməkdirsə, digəri də Azərbaycan idmanının uğurlarına, Olimpiya Hərəkatına aid musiqi bəstələməkdir. Bəstəni isə "Qələbəyə addımlar" adlandıraram.

*- Bildiyimizə görə idmanla da məşğul olmusan?*

- Bəli, bir müddət "Sərhədçi" İdman Olimpiya Mərkəzində sərbəst güləş növü ilə məşğul olmuşam. Hətta Bakı birinciliyində də iştirak etmişəm. Lakin təcrübəm az olduğuna görə yarışda mükafatçılar sırasında yer ala bilmədim. Üç aydan sonra məşqləri dayandırdım. Çünki musiqi ilə idman bir-birinə uyğun gəlmirdi. Məşqdən sonra piano arxasında əyləşəndə görürdüm ki, qollarım, əzələlərim ağrayır. Musiqi də elə bir şeydir ki, əzələlərin ağrıyan zaman tez yorulursan və əsərin yarısında qol öz işlək funksiyasını itirir.

*- Kamil, bizim dəvətimizi qəbul etdiyinə görə sənə təşəkkür edirik.*

- Mən sizə təşəkkür edirəm ki, mənə dəyərli vaxtınızı ayırdınız. Sizinlə tanış olmaqdan çox məmnunam.

*Azər Əlizadə*

# Yeddinci "Zirvə Beynəlxalq Uşaq Oyunları"nın təntənəli açılış mərasimi keçirilib

***AAAF Park Yaşayış Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş 7-ci "Zirvə Beynəlxalq Uşaq Oyunları"nın təntənəli açılış mərasimi olub.***

Tədbirdə Azərbaycan və dünya idmanının, həmçinin ölkə ictimaiyyətinin tanınmış simaları, Olimpiya çempionları, Avropa və dünya çempionatlarının qalib və mükafatçıları, Azərbaycan Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, müxtəlif qurumların nümayəndələri iştirak ediblər.

İyirmi yeddi idman növündə 12 ölkədən 4 mindən çox uşaq idmançının iştirak etdiyi möhtəşəm yarışın açılış mərasimi də maraqlı və diqqətçəkən alınıb.

Tədbirdə ilk olaraq Oyunlar barədə məlumat



verilib. Qeyd olunub ki, "Zirvə" beynəlxalq idman klublarının təşkilatçılığı ilə keçirilən bu Oyunlar ənənə halını almaqdadır. "Zirvə Oyunları"nın keçirilməsində məqsəd ulu öndərin irsinin yaşadılması, onun ölkəmiz üçün etdiyi işlərin gələcək nəsillərə çatdırılması, eyni zamanda, idman növlərinin yerlərdə təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, yarış vərdişlərinin mükəmməlləşdirilməsi, məşqçi-müəllimlərin işlərinin qiymətləndirilməsidir.

Həmçinin bildirilib ki, builki yarışlarda idmançılar ağırlıqqaldırma, atçılıq, basketbol, boks, cüdo, futbol və çimərlik futbolu, bədii və idman gimnastikası, güləş (sərbəst, yunan-Roma), karate, kartinq, kikboksinq, şahmat, taekvondo, tennis, üzgüçülük, çimərlik voleybolu və voleybol, badminton, atletika növlərində medallar uğrunda mübarizə aparacaqlar.

Sonra yarışa qatılan bütün idman növləri üzrə hər birindən 12 iştirakçı meydançaya dəvət olunub. Təntənəli marş sədaları altında onların hər biri öz yerlərini tutub, böyük bir idmançı qrupu formalaşıb. Yarışların xüsusi geyimində olan parad iştirakçılarının keçidi böyük alqışlarla müşayiət olunub, rəğbətlə qarşılanıb.

Zirvə Oyunlarının açılış mərasiminin abhavasının daha da yaddaqalan edilməsi üçün bədii hissəyə keçilib.

İlk "Zirvə Oyunlar"ının iştirakçısı hazırkı 7-ci Zirvə Beynəlxalq Uşaq Oyunlarının isə təşkilatçılarından olan Ceyran Heydərli də çıxış edib. O, yarışın əhəmiyyəti barədə danışaraq, ulu öndər Heydər Əliyevin idman irsinin qorunub-saxlanmasının vacibliyini qeyd edib.

Sonda "Zirvə" beynəlxalq idman klublarının prezidenti, sabiq ağırlıqqaldıran, Olimpiya Oyunlarının iştirakçısı Tofiq Heydərov yarışları rəsmən açıq elan edib.

Qeyd edək ki, mayın 28-dək davam edəcək yarışlar Xırdalan və Astarada keçirilir.

# Aprel

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında

### Gimnastika

Polşanın paytaxtı Varşavada bədii gimnastika üzrə "İrina Cup" beynəlxalq turniri keçirilib. Turnirdə uğurla çıxış edən Azərbaycan millisinə ilk medalı gənclərdən ibarət qrup hərəkətləri komandası qazandırıb. Fəridə Səfiyarzadə, Milana Əkbərova, Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə və Nəzrin Cəfərzadədən ibarət komandamız çoxnövçülük yarışlarında turnirin qızıl medalını qazanıblar.

Fərdi proqramda çıxış edən gimnastlarımız da yarışları medalla başa vurublar. Belə ki, millimizin gənc, eyni zamanda potensiallı üzvlərindən olan Nərminə Səmədova komandamızın hesabına 3 medal yazdırıb. Gimnastımız gürzlər və iplə icrasına görə, fəxri kürsünün ilk pilləsinə yüksələrək qızıl medala sahib olub. Çoxnövçülük proqramında isə gimnastımız bürünc medal qazanıb.

Digər təmsilçimiz Arzu Cəlilova isə iplə hərəkətlərinə görə, gümüş medala layiq görülüb.

* * *

Bədii gimnastika üzrə milli komandamızın üzvləri İtaliyanın Pesaro şəhərində keçirilən dünya kuboku yarışlarında çıxış ediblər.

Aliyə Paşayeva, Siyana Vasileva, Ayşən Bayramova, Diana Əhmədbəyli və Zeynəb Hümmətovadan ibarət qrup hərəkətləri komandamız 3 halqa və 2 cüt gürzlə icra etdikləri kompozisiya finalda 19.100 xalla dəyərləndirilib və qızlarımız yarışı 8-ci yerlə başa vurub.

Fərdi gimnastlarımız Zöhrə Ağamirova və Veronika Qudis isə 71 iştirakçı arasında çoxnövçülükdə müvafiq olaraq 18-ci və 21-ci yerdə qərarlaşıblar.

* * *

Berlində idman gimnastikası üzrə ənənəvi "Junior Team Cup" beynəlxalq turniri keçirilib. 26 ölkədən 140 gənc idmançının iştirak etdiyi turnirdə ölkəmizi təmsil edən Səməd Məmmədli həmyaşıdları arasında fərqlənərək bürünc medala layiq görülüb. Gimnastımızın dəstəli atda çıxışını hakimlər 12.850 xalla dəyərləndiriblər. S.Məmmədli turnikdəki nümayişinə görə də final mərhələsinə yüksəlib və yekunda 11.550 xalla 6-cı olub.

Digər təmsilçimiz Rüstəm Əhmədi isə öz yaş kateqoriyasında dəstəli atda finala vəsiqə qazanıb. Yekun mərhələdə gənc gimnastımız 12.200 xalla yarışı 4-cü yerdə bitirib.

* * *

Polşanın Şçeçin şəhərində idman gimnastikası üzrə Avropa çempionatı keçirilib. 38 ölkənin iştirak etdiyi qitə birinciliyində ölkəmizi kişilər arasında Murad Ağarzayev, Nikita Simonov, İvan Tixonov, qadınların yarışında isə Marina Nekrasova təmsil ediblər.

Çempionatın çoxnövçülük finalına vəsiqə qazanmış millimizin üzvləri İvan və Marina final mərhələsində öz güclərini sınayıblar. Təmsilçilərimiz müvafiq olaraq, 78.665 xalla 21-ci və 48.465 xalla 23-cü yerdə qərarlaşıblar.

Həmçinin gimnastlarımız bu il Belarusun paytaxtı Minskdə təşkil ediləcək ikinci Avropa Oyunlarına lisenziya əldə etmək şansı da qazanıblar.

* * *

Bolqarıstanın paytaxtı Sofiyada bədii gimnastika üzrə dünya kuboku yarışları keçirilib. Turnirdə ölkəmizi milli komandamızın üzvləri Yelizaveta Luzan və Darya Sorokina təmsil ediblər.

Gimnastlarımız hər 4 alət üzrə öz güclərini sınayıblar. Çoxnövçülük xallarına əsasən, D.Sorokina 59.150 xalla yarışları 45-ci, Y.Luzan isə 56.100 xalla 51-ci yerdə bitiriblər.

* * *

Bakıda bədii gimnastika üzrə II AGF Junior Trophy beynəlxalq turniri keçirilib. Milli Gimnastika Arenasında təşkil edilən yarışlarda dünyanın 20 ölkəsindən 130-a yaxın bədii gimnast mübarizə aparıb. Yarışlarda Beynəlxalq Gimnastika Federasiyasının (FİG) qaydalarına əsasən, yalnız 2004-2006-cı illər təvəllüdlü gimnastlar qüvvələrini sınayıblar. İplərlə hərəkətlərdə çıxış edən gimnastımız Arzu Cəlilova (17.350 xal) yarışların bürünc medalına layiq görülüb. Digər təmsilçimiz Nərminə Səmədova isə topla hərəkətlərdə (17.750 xal) bürünc medala sahib çıxıb. Lentlərlə hərəkətlərdə Azərbaycan gimnastı Nərminə Səmədova (18.000 xal) gümüş medal qazanaraq fəxri kürsünün ikinci pilləsində qərarlaşıb. Digər həmyerlimiz Arzu Cəlilova (17.100 xal) isə dördüncü pillədə yer alıb. Beləliklə, Azərbaycan gimnastları fərdi yarışlarda 3 (1 gümüş, 2 bürünc) medal qazanıblar. Daha 3 (1 qızıl, 2 gümüş) medal isə komanda yarışlarında əldə edilib.

### Cüdo

Çexiyanın Teplitse şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları keçirilib. Yarışların ilk günündə İsmayıl Qənbərli (50 kq), Kamran Süleymanov (55 kq) və Turan Bayramov (60 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Şükran Zamanlı (55 kq), Nahid İsmayılov (66 kq) yalnız finalda uduzaraq gümüş medala layiq görülüblər. Səbinə Əliyeva (48 kq), Aydın Rzayev (55 kq) və Mətin Rzazadə (66 kq) isə bürünc medala sahib olublar. Beynəlxalq yarışın son günündə millimiz aktivinə daha bir medal yazdırıb. Belə ki, komandamızın üzvü Aytac Qardaşxanlı (57 kq) yalnız bir görüşdə uduzaraq bürünc medala sahib olub.

* * *

Türkiyənin Antalya şəhərində cüdo üzrə Qran-Pri yarışı keçirilib. Beynəlxalq turnirin son günü Azərbaycan cüdoçuları daha iki medal qazanıblar. Qadınların yarışında ölkəmizi təmsil edən İrina Kindzerska (+78 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Rüstəm Orucov (73 kq) isə yalnız finalda məğlub olaraq gümüş medala sahib çıxıb. Digər cüdoçularımız Elmar Qasımov (100 kq) və Gültac Məmmədəliyeva (52 kq) isə bürünc medala layiq görülüblər.

* * *

İtaliyanın Liqnano şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku yarışı keçirilib. Beynəlxalq yarışda 35 ölkənin idmançıları ilə yanaşı, Azərbaycan cüdoçuları da mübarizə aparıblar. Komandamızın üzvlərindən 60 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Əhməd Yusifov bütün rəqiblərinə qalib gələrək Avropa kubokunda 1-ci yeri tutub.

* * *

Əfsanəvi kəşfiyyatçı, şəhid polkovnik-leytenant Raquf Orucovun və digər aprel şəhidlərinin xatirəsinə həsr olunmuş, 21 yaşınadək gənclər arasında III "Raquf Orucov Kuboku" beynəlxalq cüdo turniri keçirilib. Bakı İdman Sarayında təşkil olunan yarışda Azərbaycanla yanaşı, Rusiya, Gürcüstan və Qazaxıstanı təmsil edən 13 klub komandası mübarizə aparıb. Rusiyanı turnirdə Qroznı, Dərbənd və Mahaçqaladan olan komandalar təmsil edib. Finalda "Judo Club 2012"nin əsas komandasını məğlub edən Gürcüstanın "Şevardeni" klubunun cüdoçuları III "Raquf Orucov Kuboku"nun qalibi olublar. "Judo Club 2012"nin əsas komandası isə ənənəvi turnirin gümüş medalına layiq görülüb.

### Güləş

Rumıniyanın paytaxtı Buxarestdə güləş üzrə Avropa çempionatı keçirilib. Yarışda iştirak edən sərbəst güləşçilərimiz 3 qızıl, 1 gümüş və 2 bürünc medal qazanaraq ümumilikdə 145 xal toplayaraq komanda hesabında Rusiya (162) və Türkiyədən (156) sonra 3-cü yeri tutub.

Avropa çempionatına 8 güləşçiylə yollanan qadınlardan ibarət yığma komandamız isə 1 qızıl, 3 bürünc medal qazanıb. Ümumilikdə 96 xal toplayan komandamız Avropa 4-cüsü olub.

Qitə birinciliyində 1 gümüş və 2 bürünc medal qazanan yunan-Roma güləşi üzrə yığmamız isə 76 xal toplayaraq, komanda hesabında 3-cü yeri tutub. Beləliklə, Azərbaycan güləşçiləri Avropa çempionatının 13 (4 qızıl, 2 gümüş və 7 bürünc) medalla başa vurublar.

* * *

Dağıstanın Kaspiysk şəhərində gənc yunan-Roma güləşçiləri arasında Surakat Asyatilovun xatirə turniri keçirilib.

Yarışda gənclərdən ibarət yığmamızın üzvü Zaur Əliyev (55 kq) gümüş medal qazanıb.









* * *

Antalyada gənc güləşçilər arasında "Çempionlar" turniri keçirilib.

Pəhləvanlarımız yarışda 11 medal qazanıblar. 2 qızıl, 2 gümüş, 2 bürünc medal əldə edən sərbəst güləş üzrə yığmamız komanda hesabında ikinci, bir qızıl, bir gümüş və üç bürünc medalı hesabına yazan qızlardan ibarət millimiz isə üçüncü yeri tutub.

* * *

Antalyada yeniyetmə güləşçilər arasında "Victory Cup" turniri keçirilib. Yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar.

Azərbaycan millisi turnirdə 2 qızıl, 5 gümüş və 4 bürünc medal qazanıb.

### Boks

Xarkovda Sergey Danilçenkonun şərəfinə yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. 7 ölkənin təmsil olunduğu yarışı komandamız 6 medalla başa vurub. Turnirdə 46 kq çəki dərəcəsində mübarizə aparan Nicat Hüseynov qızıl medala sahib çıxıb. Zaur Qəhrəmanov (48 kq) həlledici görüşdə Dmitri Moloduşun (Ukrayna) 2:3 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənməli olub. Digər boksçularımız Əli Ələsgərli (52 kq), Turğay Mirzəyev (57 kq), Rəmiş Cəfərov (75 kq) və Cəfər Heydərli (80 kq) isə üçüncü yeri tutublar.

* * *

Gürcüstanın paytaxtı Tbilisidə boks üzrə beynəlxalq turnir keçirilib.

David Kvaçadzenin şərəfinə təşkil olunan yarışda Azərbaycan millisi 1 gümüş və 1 bürünc medal qazanıb. Yığmamızın heyətində Nurlan Səfərov (60 kq) ikinci yeri tutub. Rüfət Hüseynov (52 kq) isə fəxri kürsünün üçüncü pilləsində yer alıb.

### Karate

İspaniyanın Qvadalhara şəhərində karate üzrə Avropa çempionatı keçirilib. Komandamız yarışda uğurla çıxış edərək bir qızıl, bir gümüş və iki bürünc medala sahib çıxıb. Parakarate yarışlarında gözdən əlil idmançılar kateqoriyasında Sahib Əhədov Avropa çempionu adını qazanıb. Fərdi kumite yarışlarında Rafael Ağayev (75 kq) gümüş, Asiman Qurbanlı (+84 kq) isə bürünc medallara sahib olublar. Millimizin aktivinə növbəti bürünc medalı Roman Heydərov (kata) yazdırıb.

* * *

Mərakeşin paytaxtı Rabatda Dünya Karate Federasiyasının (WKF) "Karate 1" seriyasından Premyer Liqa turniri keçirilib. Yarışda 8 ölkədən 661 idmançı mübarizə aparıb. Karateçimiz Rafael Ağayev (75 kq) yarışın bürünc medalını qazanıb. Fransalı idmançı Loqan Da Kostaya həlledici görüşdə 2-0 hesabı ilə qalib gələn idmançımız dünya və Olimpiya reytinq xallarını artırmaqla mövqeyini möhkəmlədib.

Milli komandanın üzvlərindən Turqut Həsənov və Pənah Allahverdiyev (84 kq) təsəlliverici görüşlərə qatılsalar da, mükafatçılar arasına düşə bilməyiblər.

### Şahmat

Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2019" superturniri keçirilib. Yekun nəticələrinə görə Maqnus Karlsen 7 xalla birinci yerə layiq görülüb. Dinq Liren və Sergey Karyakin 5, Aleksandr Qrişuk, Vişvanatan Anand və Teymur Rəcəbov 4,5, David Navara, Veselin Topalov 4, Şəhriyar Məmmədyarov 3,5, Aniş Qiri isə 3 xal toplayıblar.

* * *

Almaniyada şahmat üzrə "GRENKE Chess Classic 2019" superturniri keçirilib. Yarışda iştirak edən Azərbaycan şahmatçısı Arkadi Naydiç 5 xalla- turnirdə üçüncü yeri tutub. Norveçli dünya çempionu Maqnus Karlsen 7,5 xalla "GRENKE Chess Classic 2019"un qalibi olub. İkinci yeri 6 xalla amerikalı Fabiano Karuana tutub.

* * *

Antalyada məktəblilər arasında şahmat üzrə dünya çempionatı keçirilib. Çempionatda Azərbaycan şahmatçılarından Süleyman Süleymanlı 6,5 xalla ikinci yeri tutub. Müxtəlif yaş kateqoriyalarında mübarizə aparan digər şahmatçılarımızdan ilk onluqda Murad İbrahimli (5 xal, 4-cü yer), Uğur İlyaslı (5,5 xal, 5-ci yer), Nərmin Nəsibova (5,5 xal, 6-cı yer), Xanım İsmayılova (5 xal, 6-cı yer), Murad Mehdizadə (6,5 xal, 7-ci yer), Lalə Hüseynova (5 xal, 10-cu yer) və Xəzər Babazadə (4,5 xal, 10-cu yer) qərarlaşıblar.

* * *

İspaniyada şahmat üzrə Pedro Lezcano Montalvo XII beynəlxalq turniri keçirilib. Azərbaycan şahmatçısı Azər Mirzəyev turnirdə 7,5 xalla ikinci yeri tutub. Yarışın qalibi 7,5 xalla Vadim Moiseenko olub. O, əlavə göstəricilərə görə təmsilçimizi üstələyib. Üçüncü pillədə isə Fransa idmançısı Thibault Fantinel qərarlaşıb.

### Sumo

Estoniyanın paytaxtı Tallində sumo üzrə XXIII Avropa çempionatı keçirilib. Yarışlarda ölkəmizi Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdulayevin rəhbərliyi altında Camal Feyziyev (115 kq), Avropa çempionları Məhərrəm Eyvazov (60 kq) və Çingiz Səmədov (100 kq), qitə birinciliyinin mükafatçısı Cavid Feyziyev (115 kq) və Azərbaycan çempionu Nahid Vəliyev (60 kq) təmsil ediblər.

Yarışın birinci günündə C.Feyziyev mütləq və 115 kq yuxarı çəki dərəcələrində Avropa çempionu olub. Çempionatın ikinci günündə Ç.Səmədov 100 kq çəki dərəcəsində qitə birinciliyinin qalibi adını qazanıb. C.Feyziyev isə 23 yaşınadək idmançılar arasında mütləq çəki dərəcəsində gümüş, 115 kq yuxarı çəki dərəcəsində isə bürünc medala layiq görülüb.

### Sambo

Şimali Kiprin Limassol şəhərində yeniyetmə və gənclər arasında sambo üzrə Avropa birinciliyi keçirilib. Samboçularımız qitə birinciliyində dörd medal qazanıblar. Yeniyetmə idmançıların yarışında Sahib Babayev (48 kq) və Toğrul Salmanov (87 kq-dan yuxarı) qitə birinciliyinin bürünc medallarına sahib olublar. Gənclərin yarışında isə Mehman Mehdizadə (57 kq) və Vilayət Bayramov (62 kq) üçüncü yeri tutublar.

### Qılıncoynatma

Polşanın Torun şəhərində qılıncoynatma üzrə yeniyetmə və gənclər arasında dünya birinciliyi keçirilib. Yarışda ölkəmizi təmsil edən şpaqaçımız Ruslan Həsənov dünya birinciliyini bürünc medalla başa vurub. Qrup mərhələsində keçirdiyi altı görüşü qələbə ilə başa vuran Ruslan Həsənov mütləq nəticə ilə pley-offa yüksəlib. 1/4 finala qədər uğurla yarışan təmsilçimiz bu mərhələdə macarıstanlı David Naqiyə (15:11) qalib gəlib. Bu qələbə sayəsində dünya birinciliyinin yarımfinalına yüksələn Ruslan Həsənov Azərbaycanın müstəqillik tariximizdə ilk dəfə gənclər arasında dünya birinciliyində mükafatçılar sırasında yer almağı bacarıb. Şpaqaçımız yarımfinalda fransalı Artur Filippə 7:15 hesabı ilə uduzub.

* * *

Antalyada 14 yaşadək qılıncoynadanlar arasında beynəlxalq turnir keçirilib. Qılıncoynadanlarımız sablya, rapira və şpaqada qüvvələrini sınayıblar. Qrup mərhələsində keçirdiyi bütün görüşləri qalib başa vuran Zərifə Hüseynova pley-off mərhələsində 3 qələbə qazanaraq dörddəbir finala yüksəlib. Z.Hüseynova ən güclü 4-lüyə yüksəlmək uğrunda görüşdə Sena Gökçə Üstünə 10:15 hesabı ilə uduzub. Digər qılıncoynadanımız Mirxətai Məmmədov 10 yaşlı şpaqaçıların yarışında fərqlənib. Qrup mərhələsində keçirdiyi 5 görüşdən 4-nü qalib başa vuran idmançımız da turnirin dörddəbir finalınadək irəliləməyi bacarıb. Şpaqaçımız yarımfinala gedən yolda Aslan Çağan Çelikkayalıya 4:8 hesabı ilə məğlub olub.

Zərifə Hüseynova və Mirxətai Məmmədov ən güclü 8-liyə vəsiqə qazandığı üçün təşkilatçılar tərəfindən bürünc medal və hədiyyələrlə mükafatlandırılıblar.



İdman klublarında

# “Qızıl əlcək” klubunda güclü idmançılar yetişir

*Uşaq və gənclərin sağlam ruhda tərbiyə alması və böyüməsi, vətənə, millətə layiqli övladlar kimi yetişmələri kimliyindən asılı olmayaraq, hər birimizin üzərinə böyük məsuliyyət qoyur.*

*Gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsində, əsl insan kimi formalaşmasında idmanın, bədən tərbiyəsinin rolu əvəzsizdir. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafını daha da sürətləndirmək, kütləviliyini təmin etmək məqsədi ilə dövlət səviyyəsində məqsədyönlü və kompleks tədbirlər həyata keçirilir. Kütləviliyin artırılması baxımından minlərlə uşaq və yeniyetməni öz ağuşuna alan klubların və idman məktəblərinin rolunu xüsusi ilə qeyd etmək lazımdır.*

Paytaxt Bakıda fəaliyyət göstərən fəal idman klublarından biri də Səbail rayonunda yerləşən “Qızıl əlcək” klubudur. Klubun yetirmələri ölkəmizi dünya və Avropa çempionatlarında, müxtəlif səviyyəli beynəlxalq turnirlərdə layiqincə təmsil edirlər. Klubun fəaliyyəti ilə yaxından tanış olmaq üçün onun yaradıcılarından biri, Əməkdar məşqçi Rəhim Allahverdiyevlə görüşüb, söhbət etdik. Rəhim müəllim “Qızıl əlcək” klubunun yaranmasından, fəaliyyətindən, uğurlarından və istedadlı yetirmələrindən danışdı.

## Boksu həyatının bir hissəsi hesab edir

Məlumat üçün bildirək ki, Rəhim Allahverdiyev 1976-cı ildə Gürcüstanda doğulub. Sonra ailəsi ilə birlikdə Bakıya köçüb. 1991-ci ildə 1 saylı fizika-riyaziyyat təmayüllü liseyə daxil olub və oranı əla qiymətlərlə bitirib. Liseyi bitirdikdən sonra Azərbaycan İqtisadiyyat Universitetinin informatika və idarəetmə fakültəsinə qəbul olan Rəhim müəllim, buranı da əla qiymətlərlə başa vurub. Hazırda o, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) 5-ci kurs tələbəsidir. Uşaqlıqdan idmana böyük həvəsi olan Rəhim müəllim tələbəlik illərində də idmandan kənarda qalmayıb. Güləş, cüdo və digər idman növləri ilə məşğul olsa da, ən çox sevdiyi idman növü boks olub. O, “Qızıl əlcək” klubunda və 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbində boks üzrə baş məşqçi kimi fəaliyyət göstərir. Rəhim müəllim həm də beynəlxalq dərəcəli məşqçidir.







“Boks mənim həyatımda çox önəmli yer tutur. Çünki bu idman növü ilə özümü təsdiq etmişəm, uğurlar qazanmışam. Rusiyada yaşadığım müddətdə idman ustası normasını yerinə yetirmişəm. Bakıya qayıtdıqdan sonra mən idmanın kikboksinq növünə də həvəs göstərdim. Bu idman növü üzrə dünya, Avropa çempionatlarında mükafatalayiq yerləri tutmuşam. Dünya çempionu adını 2008-ci ildə qazanmışam. Bundan əvvəlki illərdə beynəlxalq yarışlarda ölkəmizi şərəflə təmsil edərək kəmərlər qazanmışam”, - deyə təcrübəli və peşəkar məşqçi bildirdi.

Rəhim müəllim bizim ““Qızıl əlcək” klubu necə yarandı?” sualımızı isə belə cavablandırdı: “İdmana uşaqlıqdan çox böyük həvəsim vardı. Tələbəlik illərində idmana həvəsi olan tələbə yoldaşlarımızla birlikdə idman klubu açmağı xəyal edirdik. Məzun olduqdan sonra onların əksəriyyəti öz ixtisaslarının ardınca getdi və demək olar ki, idmanı unutdular. Amma tələbə yoldaşım Xaqani Quluzadə ilə mən fikrimizdən dönmədik. O, klubun prezidenti, mən isə baş məşqçisi oldum. Biz bu klubu yaradanda məqsədimiz o idi ki, uşaq və gənclərimiz zərərli vərdişlərdən uzaqlaşaraq sağlam həyat tərzinə cəlb edilsinlər. Vəzifəmiz ondan ibarət idi ki, vətənimiz, cəmiyyət üçün sağlam nəsil, dövlətin müdafiəsində dura biləcək sağlam əsgər yetişdirə bilək. Bizim klubun devizi vətən üçün sağlam və güclü əsgərlər yetişdirməkdir. Bütün idmançılar dünya çempionu olmaya bilər, amma əsgər mütləq olmalıdırlar. Bu gün yarış meydanlarında klubumuzun yetirmələri Azərbaycanın bayrağı dalğalandırırsa, möhtəşəm himnimiz səslənirsə, demək ki, məqsədimizə çatmışıq”.

## Klubda nizam-intizam çox yüksək səviyyədədir

Hansı sahədə olursa olsun, nizam-intizam, işinə peşəkarlıqla və məsuliyyətlə yanaşmaq uğurun yarısıdır. Burada olduğumuz qısa zaman kəsiyində klubda yüksək nizam-intizamın şahidi olduq. Rəhim müəllim kluba seçim, yaş həddi, məşqçilər və digər məsələlərdən danışdı: “Klubumuzda 200-dən artıq uşaq və yeniyetmə idmanın boks, kikboksinq, karate, uşu-sanda, qarışıq döyüş növləri üzrə məşğul olur. Burada yaş həddi yoxdur. 6 yaşından etibarən sağlamlığının qeydinə qalan hər bir kəs gəlib klubda məşq edə bilər. Klubumuzda təcrübəli və peşəkar məşqçilərimiz kifayət qədərdir. Onlar öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Onlardan kikboksinq üzrə Sirac Ələkbərov, boksda Teymur Əsgərov, karatedə Mais Mədətov, uşu-sanda üzrə Pərviz İsayev və başqalarının adlarını çəkə bilərəm.

Klubumuzda nizam-intizam çox yüksək səviyyədədir. İntizam olmayan yerdə nəticə və uğur gözləmək qeyri-mümkündür. Təlim-tərbiyə işinə xüsusi diqqət yetirilir. Nizam-intizamsız, məsuliyyətsiz idmançı özü bir yana qalsın, cəmiyyətə heç bir xeyir verməyəcək, ziyandan başqa”.

## “İdman həm də ruhun, mənəviyyatın tərbiyəsidir”

Boks üzrə dünya çempionu Şaban Şahpələngovu idman azarkeşləri yaxşı tanıyır. Onun peşəkar boksçu kimi yetişməsində Rəhim müəllimin əməyi böyükdür. Şaban dünya çempionu adına 2010-cu ildə 51 kq çəki dərəcəsində layiq görülüb. Həmin il o, Sinqapurda təşkil edilən Yeniyetmələrin Yay Olimpiya Oyunlarında isə 5-ci yer tutub. İdmançımız 2011-ci ildə isə Tələbələrin Yay Universiadasından vətənə qızıl medalla qayıdıb. Rəhim müəllim Əməkdar məşqçi adına yetirməsi Şaban Şahpələngovun dünya çempionu olmasından sonra layiq görülüb. Təcrübəli məşqçi 2018-ci ildə idman sahəsində əldə etdiyi uğurlara və nailiyyətlərə görə ölkə rəhbərinin Sərəncamı ilə mənzillə mükafatlandırılıb. İdmançılara və onların məşqçilərinə göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirən Rəhim müəllim dedi: “İdman insanın həyatında mühüm rol oynayır. İdman sağlamlıqdır, həm də ruhun, mənəviyyatın tərbiyəsidir. İdmanla məşğul olan insan heç vaxt zərərli işlə məşğul ola bilməz, başqalarına ziyan yetirməz. Belə insanlar həm sağlam, qüvvətli olmaqla yanaşı, həm də iradəli, vətənpərvər olurlar. Yaxşı idmançı, həm də yaxşı əsgər, oğul, ailə başçısı deməkdir.

Yetirmələrimin arasında dünya, Avropa çempionları, mükafatçıları vardır. Bu, məni çox sevindirir. Perspektivli idmançılardan Nicat Həsənov, Pərviz Heydərov, Amil Məmmədzadə, Nihat Abdullayev, Ağasəlim Mustafayev, Əziz Abdullayev və başqalarının adlarını çəkə bilərəm. Bu uşaqlar hamısı Azərbaycan yığma komandasının heyətində yarışırlar. Nicat 2018-ci ildə Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının iştirakçısıdır, həm də həmin il İtaliyada keçirilən Avropa birinciliyinin gümüş mükafatçısıdır.

Mayın 6-da Rusiyanın Stavropol şəhərində keçirilən boks turnirindən böyük uğurla qayıtmışıq. Kadet, yeniyetmə, gənclər və kişilər arasında təşkil edilən beynəlxalq turnirdə ölkəmizi 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin və “Qızıl Əlcək” idman klubunun boksçuları təmsil ediblər. Azərbaycan komandası turnirdə 10 qızıl, 2 gümüş, 11 bürünc medal qazanıb. Kadetlər arasında Ayaz Tağızadə (26 kq), Rauf Allahverdiyev (46 kq), Pərviz Aram (32 kq) çempion olublar. Yeniyetmələrin yarışında Amin Məmmədzadə (38,5 kq), Firudin Məmmədov (63 kq) və Davud İbrahimov (66 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Gənclərin mübarizəsində Ağasəlim Mustafazadə (60 kq), Türkəş Mustafayev (69 kq), kişilərin yarışında isə Pərvin Heydərov (69 kq) və Elşən Hüseynov (+91 kq) çempion olublar. Uğurlarımız artıqca, işləmək həvəsi də artır. Bizə göstərdiyi dəstəyə görə Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə, Azərbaycan Boks Federasiyasına minnətdarlığımızı bildiririk”.

## “İdman özü də bir elmdir”

“Qızıl əlcək” klubunun baş məşqçisinin idman və təhsilin bir vəhdət halında tutulması məsələsinə münasibəti çox maraqlı oldu. “İdmanla təhsil bir yerdə olanda nəticəsi daha yaxşı olur. Düzdür, bu bir qədər çətindir, amma mümkündür. Əsas odur ki, həvəs olsun. Savad, bilik hər bir sahədə insana lazımdır. Dünyagörüşü geniş idmançı heç bir vaxt dava-dalaşa girməz, qalmaqal yaratmaz. Əsl idmançı öz gücünü rinqdə, yarış meydançasında sübut edir. Uşaqlıqdan həm idmana, həm təhsilə böyük marağım olub. Orta məktəbdə, ali məktəbdə oxuyanda əlaçı şagirdlərlə bir cərgədə dayanmışam və çalışmışam ki, onlardan geri qalmayım. Bu, sağlam rəqabətdir, elə idmanda olduğu kimi. Tanrı hər bir insana istedad verir. Amma əsas məsələ o istedadı üzə çıxarmağı bacarmaqdır. Bu məsələdə isə insanın özü, xarakteri, iradəsi, zəhmətkeşliyi, eləcə də, ailə, məktəb, mühit böyük rol oynayır. Belə olanda insan istədiyi uğura, qarşıya qoyduğu məqsədə çata bilir.

İdmançı da, məşqçi də savadlı, bilikli olanda nəticə də müsbət olur. Bir məşqçi kimi savadlı tələbə ilə işləmək asandır, nəinki savadsızla. İdman özü də bir elmdir. Fənd işlətmək, kombinasiya qurmaq, rəqibin hücum anında vəziyyətdən çıxış yolu tapmaq və s. Bütün bunlar üçün həm fiziki, həm də zehni kamillik tələb edir. Belə bir deyim var: “Boks şahmat deyil, amma burada da fikirləşmək lazımdır”.

Söhbətimizn sonunda Rəhim müəllim qəzetimizlə bağlı xoş sözlərini də dilə gətirdi: “Olimpiya dünyası” qəzeti hər zaman idmançıların, məşqçilərin yanındadır və onların uğurlarını, problemlərini işıqlandırır. Ölkə və dünya idmanında baş verən yeniliklər daim qəzetin səhifələrində yer alır. Yaxşı yadımdadır, 2010-cu ildə də qəzetinizə müsahibə vermişdim. Həmin müsahibə klubumuz üçün çox düşərli olmuşdu. Kollektivinizə bu gərgin işinizdə uğurlar arzu edirəm”.

***Səadət Hakıyeva***

Bölgə xəbərlər

## Məktəblilər arasında mini futbol üzrə rayon birinciliyi

Astara Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş məktəblilər arasında mini futbol üzrə rayon birinciliyi başa çatıb.

Astara Rayon Gənclər və İdman İdarəsi, Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən və iki gün davam edən yarışda Astara şəhər 1, 2 , 5 və 7 nömrəli, Səncərədi və Siyəku kənd, Kijəbə qəsəbə tam orta məktəblərinin komandaları qələbə uğrunda mübarizə apardılar.

Rayon birinciliyində daha yaxşı oyun nümayiş etdirən Astara şəhər 2 nömrəli və Kijəbə qəsəbə tam orta məktəbin komandaları finalda qarşılaşdılar.

Final görüşündə Kijəbə qəsəbə tam orta məktəbinin komandası rəqibinə 3:1 hesabı ilə qalib gələrək rayon birinciliyinin qalibi olub.

* * *

Astara Dənizkənarı Park Bulvar Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş kross qaçışı üzrə rayon birinciliyi başa çatıb.

Astara Rayon Gənclər və İdman İdarəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda qızlar 1, oğlanlar 2, gənclər və böyüklər isə 3 kilometr məsafəyə qaçışda qüvvələrini sınayıblar.

Qızların yarışında Türkanə Caniyeva (Siyəku kənd tam orta məktəb) birinci yeri tutub.

Yeniyetmə oğlanların yarışında Dədəkişi Kazımov (Astara şəhər 1 nömrəli tam orta məktəb), gənclər arasında isə Vasif Qurbanəliyev (Siyəku kənd tam orta məktəb) birinci olublar.

Sonra qaliblərə Astara Rayon Gənclər və İdman İdarəsinin diplomları və hədiyyələr təqdim olunub.

* * *

Bərdədə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş ümumtəhsil məktəblərinin komandaları arasında şahmat turnirinin qalibləri müəyyənləşib.

Şahmat turniri ulu öndər Heydər Əliyevin ötən əsrin 80-ci illərində açılışında iştirak etdiyi Bərdə Şahmat Məktəbində keçirilib. Əvvəlcə, ümummilli liderin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya və təhsil şöbəsinin müdiri Rzaqulu Şərifov çıxış edərək, ulu öndər Heydər Əliyevin keçdiyi şərəfli ömür yolundan, onun gənclərə, təhsilin və idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan danışıblar.

Çıxışlardan sonra yarış başlayıb. Daha yüksək nəticə göstərən Əyricə kənd tam orta məktəbin komandası birinci, Bərdə şəhər 2 nömrəli tam orta məktəbin komandası ikinci, Zərifə Əliyeva adına məktəb-liseyin komandası üçüncü yerə layiq görülüb.

* * *

Salyanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə rayonun idarə, müəssisə və təşkilatlarının komandaları arasında keçirilən mini futbol üzrə rayon birinciliyi başa çatıb.

Rayon icra hakimiyyəti, gənclər və idman idarəsi və Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən çempionatda hər qrupda 5 komanda olmaqla, iki qrupda 10 komanda mübarizə aparıb.

On gün davam edən yarışda rayon polis şöbəsinin və Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin komandaları çempionatın finalına vəsiqə qazanıblar.

Final oyunu 1:0 hesabı ilə Muğan Regional Mərkəzinin xeyrinə başa çatıb.

Sonda çempionatın seçilmiş idmançıları, I və II yeri tutan komandalar Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom, medal, kubok və hədiyyələrlə təltif olunublar.

# FUTBOL



## Azərbaycan Premyer Liqasına yekun vuruldu

Futbol üzrə Azərbaycan Premyer Liqasında 2018/2019-cu illər mövsümünə yekun vurulub.

XXVIII turun son oyununda gümüş mükafatçı "Neftçi" çempionluğu erkən qazanan "Qarabağ"la qarşılaşıb. "Bakcell Arena"da baş tutan matçda qonaqlar qalib gəlib - 3:2.

Oyunda hesabı 15-ci dəqiqədə "Qarabağ"ın hücumçusu Mahir Mədətov açıb. Lakin ilk hissənin sonlarına yaxın "Neftçi" 2 qol vurub. Əvvəlcə, 38-ci dəqiqədə Emin Mahmudov, 2 dəqiqə sonra isə Canluka Sansone fərqlənib. İkinci hissədə yenidən M.Mədətov ön plana çıxıb. O, 64-cü dəqiqədə hesabı 2:2 edib. Oyunun 90-cı dəqiqəsində isə Riçard Almeyda Ağdam komandasının qələbə qolunun müəllifi olub.

Beləliklə, "Qarabağ" mövsümü 66, "Neftçi" isə 58 xalla başa vurub.

M. Mədətov 16 qolla mövsümün bombardiri olub.

Qeyd edək ki, oyundan sonra mükafatlandırma mərasimi keçirilib. Çempionluq kubokunu başı üzərinə qaldıran "Qarabağ" qızıl, "Neftçi" gümüş, "Səbail" isə bürünc medallara layiq görülüb.

Turun digər oyunlarında "Keşlə" "Səbail"i 4:1, "Zirə" "Sabah"ı 3:0, "Sumqayıt" isə "Qəbələ"ni 1:0 hesabı ilə məğlub edib.

## "Qarabağ", "Qəbələ", "Neftçi", "Sumqayıt", "Zirə" və "Səbail"ə lisenziya verilib

***Mayın 11-də AFFA-nın inzibati binasında Lisenziya Komissiyasının iclası keçirilib.***

***İclasda 2019-2020-ci il mövsümündə UEFA-nın klub və Premyer Liqa yarışlarında iştirak etmək üçün müraciət etmiş klubların sənədlərinə baxılıb.***

AFFA-nın Lisenziya Komissiyası klubların lisenziyalaşdırılması üzrə qaydalara əsasən aparılmış müzakirələrdən sonra qərarlar qəbul edib. Belə ki, UEFA-nın klub yarışlarında iştirak etmək üçün "Qarabağ", "Qəbələ", "Neftçi", "Sumqayıt", "Zirə"və "Səbail" klublarına lisenziya verilib. "Keşlə" komandasına isə lisenziya verilməyib.

"Keşlə" və "Sabah" klubları Premyer Liqada iştirak etmək üçün lisenziya alıblar. "Kəpəz", "Ağsu", MOİK, "Turan Tovuz", "Qaradağ-Lökbatan", "Şüvəlan" və "Zaqatala"nın Premyer Liqada iştirakına icazə verilməyib.

Lisenziya iddiaçısı lisenziya verilməsindən imtina haqqında bildiriş məktubu aldığı tarixindən etibarən 10 gün müddətində AFFA-nın Lisenziyalaşdırma üzrə Apellyasiya Komitəsinə apellyasiya şikayəti verə bilər.

UEFA-nın Klubların Lisenziyalaşdırılması və Maliyyə üzrə "Fair Play" qaydalarında əks olunmuş tələbə əsasən, Avropa futbol qurumunun yarışlarında iştirak edən klublar mütləq lisenziya əldə etməlidir. UEFA lisenziyasının alınması üçün klublar qaydalarda göstərilmiş bütün mütləq meyarlara cavab verməlidir. Qaydalardan biri "3 illik üzvlük qaydası" adlanır. Həmin qaydaya əsasən, lisenziya iddiaçısı lisenziyalaşdırma mövsümünün əvvəlində ən azı ardıcıl 3 il ərzində fəaliyyət göstərməli və daxili yarışlarda iştirak etməlidir. Məlum olduğu kimi, "Səbail" Topaz Premyer Liqasında iştirak edir və AFFA "UEFA-nın Klubların Lisenziyalaşdırılması və Maliyyə üzrə "Fair Play" qaydalarının tələblərinə uyğun olaraq, komanda ilə bağlı müstəsna prosedurun tətbiqi üçün UEFA-ya müraciət edib. UEFA müraciətin baxılması üçün prosesə başlayaraq həm AFFA, həm də "Səbail" tərəfindən müvafiq sənədlərin toplanmasını və vaxtında UEFA-ya təqdim olunmasını tələb etmişdi. UEFA təqdim olunmuş sənədləri araşdırdıqdan sonra müsbət qiymətləndirildiyini bildirib və yaxın günlərdə bununla bağlı rəsmi cavabı AFFA-ya ünvanlayacaq.

"UEFA-nın klub yarışlarında iştirak etmək üçün Azərbaycan Futbol Klublarının Lisenziyalaşdırılması üzrə qaydalara müvafiq olaraq, 2019-2020-ci il mövsümündə UEFA-nın klub yarışlarında iştirak etmək üçün lisenziya almış klublar avtomatik olaraq eyni mövsüm üçün Azərbaycan Premyer Liqa yarışlarında iştirak etmək üçün lisenziya almış hesab olunur.

## Azərbaycan UEFA-nın Avropa Liqasının final oyununa hazırdır

***Dövlət Turizm Agentliyi digər dövlət orqanları ilə birgə mayın 29-da UEFA-nın Avropa Liqasının final oyununun Azərbaycanda keçirilməsi ilə bağlı ölkəyə gələcək xarici qonaqlar və turistlərin rahatlığı üçün digər dövlət orqanları ilə, xüsusilə Azərbaycan Hava Yolları (AZAL), Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə birlikdə fəaliyyət göstərəcək.***

***Azarkeşlərin səbirsizliklə gözlədiyi, 2018-ci ilin dekabr ayından etibarən biletləri satışa çıxarılan finalın hazırlıqları xeyli müddətdir ki, davam edir.***




Məlumat üçün bildirək ki, AZAL tərəfindən mayın 29-30-da həyata keçiriləcək birbaşa London-Bakı-London uçuşlarından başqa, xarici azarkeşlərin oyunu izləməsi üçün 40-dan çox çarter reys təşkil olunacaq. Bundan başqa, AZAL-la klublar arasında əldə olunan razılığa əsasən əlavə çarter reyslərin də təşkil olunması istiqamətində danışıqlar aparılır.

Paytaxt Bakıda ulduz dərəcəsinə uyğun olaraq müxtəlif büdcəli, həm beynəlxalq, həm də yerli brendlərə məxsus hotellərin mövcudluğu xarici qonaqların yarış ərəfəsində rahatlığını təmin edəcək.

Turistlərin ölkəyə gəlişi, yerləşdirilməsi və Azərbaycanda qalma müddəti ərzində təhlükəsizlik də daxil olmaqla digər bütün məqamlar dövlət və özəl biznesin təmsilçiləri tərəfindən diqqətlə düşünülüb. Həmçinin dünya üzrə ölkələrin reytingində terror təhlükəsinin ən az olduğu ölkələr sırasında Azərbaycanın adı ilk sıralardadır.

Yarışla əlaqəli olan bütün dövlət orqanları xüsusi əhəmiyyətə malik idman tədbirinin müvəffəqiyyətlə keçirilməsi üçün gücləndirilmiş iş rejimində çalışacaqlar.

Təhsil ocaqlarında

***Təhsil hər millətin gələcəyi, işıqlı sabahının təminatçısıdır. Dövlətimizə layiqli vətəndaşlar, peşəkar kadrlar yetişdirmək üçün ölkəmizdə yüzlərlə təhsil müəssisəsi fəaliyyət göstərir. Bu gün onların əksəriyyətində yüksək ixtisaslı pedaqoji kollektiv çalışır vəhəmin məktəblər müntəzəm olaraq çəkilən zəhmətin bəhrəsini görür, uğurlar əldə edirlər. Onlardan biri də "İdrak" liseyidir. Lisey 2008-ci ildə Sumqayıt şəhərində yaradılıb. 2014-cü ildən isə Bakı filialı fəaliyyətə başlayıb. Elə həmin vaxtdan etibarən liseyin Bakı filialının şagirdləri nəinki təhsildə, eləcə də, idmanda, incəsənətdə müntəzəm olaraq uğurlar qazanırlar. Bu yaxınlarda adı çəkilən təhsil ocağının onuncu sinif şagirdi Nazim Həsənov məşğul olduğu kikboksinq idman növü üzrə respublika çempionu olub. Bu, məktəbin hələ ki, sonuncu nailiyyətlərindəndir.***

# "İdrak" liseyi gələcəyə işıq saçır




Bir neçə gün əvvəl haqqından danışdığımız liseydə olub, təhsil müəssisəsinin qazandığı uğurlar, idman həyatı, həmçinin Nazimin dərsləri, ona olan münasibətlə bağlı məlumat aldıq. Məlum oldu ki, yeniyetmə idmançı dərslərinə də həvəslə, məsuliyyətlə yanaşır.

Əvvəlcə, liseyin direktor müavini Nilufər Əliyeva ilə həmsöhbət olduq. Onun sözlərinə görə uşaq və yeniyetmələrin fiziki və mənəvi inkişafı təhsil ocağının qarşısına qoyduğu əsas məqsədlərdəndir. "Sevindirici haldır ki, hər il "İdrak" liseyinin yetirmələri maksimum nəticə göstərərək, ali məktəbə qəbul olurlar. Liseyimizdə müntəzəm olaraq müxtəlif viktorinalar, bilik yarışları təşkil olunur. Şagirdlərimiz riyaziyyat və məntiq üzrə keçirilən "Kenguru" yarışlarında hər dəfə yaxşı nəticələr əldə edirlər. Bu, bizim bütün pedaqoji kollektivin uğurudur. Ancaq qeyd etmək istərdim ki, biz təkcə elmi biliklərlə kifayətlənmir, həm də şagirdlərin fiziki hazırlığına diqqət edirik. Necə deyərlər, sağlam bədəndə sağlam ruh olar. Mütəxəssislər də təsdiq edirlər ki, şagirdlərin aydın təfəkkürə, analitik düşüncəyə malik olmaları üçün onların idmanla məşğul olmaları vacibdir. Bu məqsədlə liseyimizdə tennis, futbol, basketbol, üzgüçülük, şahmat, karate və digər idman növləri üzrə məşqlər keçirilir. Liseyimizin şagirdləri arasında idmana maraq böyükdür. Onlardan biri də Nazim Həsənovdur. Əlbəttə, Nazimin hər bir uğurunun arxasında gərgin zəhmət dayanır. Bəzən düşünürlər ki, yeniyetmə həm idmanda, həm də təhsildə fərqlənə bilməz. Lakin Nazim özünün əzmkarlığı ilə göstərir ki, inam, istək olan yerdə hər şey mümkündür. Yəni o, dərslərində də fəaldır. Biz hamımız şagirdimizlə fəxr edirik" - deyə direktor müavini qeyd etdi.



Sağlamlıq isə birbaşa idman və bədən tərbiyəsi ilə bağlıdır. Nilufər xanım onu da dedi ki, məktəbin şagirdləri arasında Nazim kimi bacarıqlı idmançılar kifayət qədərdir. Nuray və Ayla Əliyevə hələ azyaşlı olmalarına baxmayaraq, perspektivli idmançılardır. Onlar gimnastika üzrə böyük nəticələr qazanıblar. Məlumdur ki, nizam-intizam hər bir qələbənin əsas açarıdır. Böyük ədib Ceyhun Hacıbəylinin dediyi kimi, tərbiyə insan həyatında ən başlıca amildir. Gərək insan intizamlı olub, verilən tapşırıqları qüsursuz və vaxtında yerinə yetirsin ki, konkret sahədə uğur qazana bilsin. Liseyin tərbiyə işləri üzrə direktor müavini Rübabə Hacıyeva bu haqda danışarkən vurğuladı ki, "İdrak"çıların təlim-tərbiyələrinin yüksək səviyyədə olmalarında onların əksəriyyətinin müxtəlif idman bölmələrində məşq etmələri müstəsna rol oynayır. "Bildiyiniz kimi, idman insanları təkcə fiziki cəhətdən inkişaf etdirmir. Həm də onlarda bir çox mənəvi keyfiyyətlər, o cümlədən böyüklərə hörmət, çalışqanlıq aşılayır. Şagirdlərimizin böyük bir hissəsinin idmanla məşğul olmaları onların davranışlarında, hərəkətlərində özünü göstərir. Hazırda aşağı siniflərdən 84, yuxarı siniflərdən isə 70-ə yaxın şagird tennislə məşğuldur. Futbolçu şagirdlərimizin sayı isə 100-ə yaxındır. Üzgüçülüyün sirlərini öyrənənlərin sayı nisbətən azdır. Çünki liseyimizdə aşağı siniflər üçün üzgüçülük məşqləri keçirilmir. Şahmat ən sevilən idman növlərindəndir. Kənan Əsgərli, Fərid Qəribov bu idman növü üzrə fərqlənən şagirdlərdəndirlər. Müəllimlərin fikrincə, onlar gələcəkdə ölkəmizi hətta beynəlxalq arenalarda təmsil edə bilərlər" - , deyə Rübabə xanım fərəh hissi ilə şagirdlərindən danışdı.

Təcrübələr göstərir ki, idmanla məşğul olanlar həm də analitik düşüncə tərzlərinə, daha tez və sürətli qərar qəbul etmə bacarıqlarına görə həmyaşıdlarından fərqlənirlər. Onlar daha məqsədyönlü hərəkətlər edir, qətiyyətli addımlar atırlar. Nazimin riyaziyyat müəllimi Mənzər Bağırova da bu fikirdədir ki, idmanla məşğul olandan sonra Nazim dərslərinə daha məsuliyyətlə yanaşmağa başlayıb. "Nazim mənim sevimli şagirdlərimdən biridir. Onun pozitiv əhval-ruhiyyəsi, dostlarına olan mehriban münasibəti, incə yumor hissi riyaziyyat kimi çətin fənni çox rahat şəkildə mənimsəməsinə kömək olur. Riyaziyyata olan böyük marağı, qabiliyyəti nəticəsində verilən tapşırıqları asanlıqla, sürətlə, bəzən hətta şifahi həll etməyə nail olur. Nazim eyni zamanda dərsdən kənar fəaliyyətə qoşularaq riyaziyyat olimpiadalarında, intellektual yarışlarda, müsabiqələrdə fəal iştirak edir. Mən sevimli şagirdimin parlaq gələcəyinə inanıram. Digərlərinə məsləhət görürəm ki, onlar da idmanla məşğul olsunlar. Çünki idman hamı üçün vacibdir", - deyə Mənzər müəllimə öz fikirlərini bildirdi.

Liseyin tarix müəlliməsi Aynurə İsmayılova bildirdi ki, bir müddət Nazimə tarix fənnindən dərs deyib. "Nazim ilk gündən özünü məsuliyyətli, savadlı və intizamlı şagird olduğunu təsdiqlədi. Tarixi çox sevir və dərslərinə yaxşı hazırlaşır. Bu mənada bir müəllim kimi fəxr edirəm ki, onun kimi şagirdim olub".

Müəllimləri Nazim haqqında xoş sözlər dedilər. Bəs, görəsən, o, sinif yoldaşları ilə münasibətdə necədir? Bu suala cavab tapmaq üçün respublika çempionunun sinif yoldaşlarından bir neçəsi ilə həmsöhbət olduq. Sevindirici haldır ki, onlar da Nazimi əsl dost kimi xarakterizə etdilər. Şagirdlərdən Rəsul Nağıyev Nazim haqqında bunları dedi: "Nazim mənim ən yaxın dostlarımdan biridir. Tez-tez bir-birimizə dərslərimizdə kömək edir, məsləhətləşirik. Çox sevinirəm ki, onun kimi dostum var".

Nazimin daha bir sinif yoldaşı İlqar Xıdırovun fikrincə isə, Nazim sinifin liderlərindən biridir. "Tez-tez Nazimdən məsləhət alırıq. Bəlkə də, fəallığı bəzən əsas mane olur. Ancaq hər şeyə rəğmən hamı Nazimi çox istəyir."

Bütün bunlar bir şagird, bir idmançı, gələcəyin layiqli vətəndaşı barəsində deyilən ən xoş sözlərdir. Hesab edirik ki, yazının qəhrəmanı əldə etdiyi nailiyyətlərlə cəmiyyətimizdə layiqli mövqe tutacaq. Bunu zaman göstərəcək.

*Kənan Novruzov*

## Transfer tarixində yeni bir səhifə açıla bilər

"Real"rəhbərliyi PSJ-nin ulduzu Kilian Mbappeyə təklif göndərməyə hazırlaşır. "France Football" nəşrinin yaydığı xəbərə görə, "kral klubu" fransız hücumçu üçün parislilərlə 280 milyon avro ödəməyə hazırdır. Əgər keçid gerçəkləşərsə, bu, futbol tarixində bir oyunçu üçün ödənilən ən yüksək təzminat məbləği olacaq. Hələlik bu rekord 2 il öncə "Barselona"dan 222 milyon avro qarşılığında PSJ-yə transfer olunan Neymara məxsusdur.

* * *

"Barselona" bu mövsümün sonu istefaya göndərməyi planlaşdırdığı baş məşqçi Ernesto Valverdenin əvəzinə namizədləri



müəyyənləşdirib. Yeni vəzifəyə əsas namizədin Hollandiya millisinin baş məşqçisi Ronald Kuman olduğu bildirilib. Futbol karyerası ərzində ardıcıl 6 mövsüm Kataloniya təmsilçisində oynayan 56 yaşlı mütəxəssisin klub üçün ən uyğun şəxs olduğuna qərar verilib.

Hollandiya millisi ilə müqaviləsi olan Kuman "Barsa"nın təklifini qəbul etməsə, "Ayaks"ın baş məşqçisi Erik Ten Haqla danışıqların başlanılacağı iddia olunub.

* * *

"Atletiko" futbolçusu Alvaro Morata ilə icarə müqaviləsinin müddətini uzatmağa



qərar verib. Madrid klubu yanvarda "Çelsi"dən icarəyə götürdüyü ispan hücumçu ilə müqavilənin müddətini 2020-ci ilə qədər uzadacaq. "Atletiko" bunun üçün London təmsilçisinə 16 milyon avro ödəyəcək. Qeyd edək ki, Morata bu mövsüm La Liqada 14 matçda 6 qol vurub, 1 qolun ötürməsini verib.

* * *

"Liverpul" yeni mövsüm üçün heyətini gücləndirməyə hazırlaşır. Mersisaydlılar "Real"ın oyunçusu Marko Asensioya transfer təklifi göndərməyi planlaşdırır. 23 yaşlı yarımmüdafiəçinin "kral klubu" ilə 2023-cü ilədək müqaviləsi var. Qeyd edək ki, Asensio bu mövsüm "Real"da 42 qarşılaşmaya çıxaraq 6 qol vurub və 7 məhsuldar ötürmə verib.

* * *

"Çelsi" futbolçusu David Luislə yeni müqavilə imzalayıb.

32 yaşlı müdafiəçi ilə müqavilənin müddəti 2021-ci ilin iyununa qədər uzadılıb. Qeyd edək ki, D.Luis 2014-cü ildə PSJ-dən London təmsilçisinə transfer olunub. O, bu mövsüm Premyer Liqada 35 matçda 3 qol vurub, 2 qolun ötürməsini verib.

* * *

"Arsenal" heyətini gücləndirib. "Topçular" ötən mövsüm Estoniya üçüncü liqa təmsilçisi "Nomme Yunayted"dən U-18 komandasına cəlb etdiyi Karl Heynlə müqavilə bağlayıb. 17 yaşlı qapıçının müqaviləsi müddəti 2022-ci ilə qədərdir.

Qeyd edək ki, bu mövsüm "Arsenal"ın U-18 komandasının heyətində 6 oyun keçirən gənc qapıçı 9 qol buraxıb. O, yalnız bir oyunda qapısını toxunulmaz saxlayıb.

* * *

PSJ "Mançester Yunayted"in qapıçısı David De Xeanı transfer etmək istəyir. Paris klubu artıq "qırmızı şeytanlar"la



danışıqlara başlayıb. PSJ ispan qapıçı üçün rəsmi təklif göndərib. Qeyd edək ki, De Xeanın "Mançester Yunayted" ilə müqaviləsi 2020-ci ilin iyununda başa çatır.

* * *

"Fulhem"in yeni baş məşqçisi müəyyənləşib. Fevralda müvəqqəti olaraq baş məşqçi təyin edilən Skott Parker vəzifəsində qalıb. Klubun rəsmi saytı 38 yaşlı mütəxəssislə 2 illik müqavilə imzalandığını açıqlayıb. Parkerin rəhbərliyi altında komanda 9 oyunun 3-də qələbə qazanıb.

Qeyd edək ki, İngiltərə millisinin sabiq üzvü futbolçu karyerasında "Fulhem"in kapitanı da olub.

## Veteran gimnastımız dünyasını dəyişib



İdman gimnastikası üzrə veteran idmançı Ülkər Qasımova 87 yaşında dünyasını dəyişib.

Ülkər Qasımova Qasım qızı 1932-ci ildə Bakı şəhərində anadan olub. Ülkər xanım 132 saylı orta məktəbi bitirdikdən sonra pedoqoji peşə məktəbində təhsil alıb. Ali təhsil haqqında diploma 1959-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra yiyələnib.

Ülkər xanım 1950-1957-ci illərdə idman gimnastikası üzrə ölkəmizin yığma komandasının üzvü kimi yarışlarda iştirak edib. O, 1950-1952-ci illərdə keçirilən ümumittifaq yarışlarında (Kazan), SSRİ çempionatında (Moskva), Qafqazyanı ölkələrin 6-cı Spartakiadasında (Tiflis), SSRİ komanda birinciliyində (Sverdlovsk) ölkəmizi təmsil edib. İdman gimnastımız 1953-1955-ci illərdə isə SSRİ birinciliyində (Leninqrad), ümumittifaq bədən tərbiyəçilərinin paradında (Moskva), SSRİ birinciliyində (Xarkov), SSRİ birinciliyində (Moskva) Azərbaycanın yığmasının heyətində çıxış edib.

Ülkər Qasımova 1964-cü ildə bədən tərbiyəsi və idmanın inkişafında fəal iştirakına görə SSRİ bədən tərbiyəsi əlaçısı döş nişanı ilə təltif olunub. Veteran idmançı Ali təhsilini başa vurduqdan sonra bir müddət Bakı Bədən Tərbiyəsi və İdman Komitəsində, əvvəlcə, təlimatçı - məşqçi, sonra isə baş təlimatçı - məşqçi vəzifəsində çalışıb. 1994-2007-ci illərdə isə o, Bakı Şəhəri Gənclər və İdman Baş İdarəsində baş məsləhətçi kimi fəaliyyət göstərib.

Ülkər Qasımova 1965-ci ildə ümumittifaq dərəcəli hakim, 1991-ci ildə isə Əməkdar Bədən Tərbiyəsi və İdman işçisi adına layiq görülüb. Ölkəmizin rayonlarında qadınlar arasında idmanın təbliğində xüsusi xidmətləri olan Ülkər xanım Azərbaycan televizyasında səhər gimnastikası proqramının aparıcılarından olub.

Azərbaycan Gimnastika Federasiyası və Veteranlar Şurası idman gimnastikasının inkişafında əvəzolunmaz xidmətləri olan Ülkər Qasımovanın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

## Millimiz Belarusda ikinci yeri tutub

Futbol üzrə 16 yaşadək qızlardan ibarət Azərbaycan yığması Minskdə təşkil olunmuş UEFA İnkişaf Turnirində sonuncu oyununu keçirib.

Qazaxıstan yığması ilə qarşılaşmanın əsas vaxtında qapılara qol vurulmayıb. Penaltilər seriyasında daha dəqiq olan yığmamız 4:2 hesabı ilə qələbə qazanıb və turnirdə ikinci yeri tutub.

Millimiz ilk oyununda Farer adaları yığmasına 2:0 hesabı ilə qalib gəlsə də, Belarus ilə qarşılaşmada uduzub - 1:2.

## Həftəlik idman qoroskopu

**Qoç**
Bu həftə ulduzlar sizə özünüzü yormamağı məsləhət görür. Çünki idmanda hər bir işiniz boşa çıxacaq. Fikrinizdə tutduğunuz və etmək istədiyiniz işlər baş tutmayacaq. Şənbə günü sizin üçün uğurlu olacaq.

**Buğa**
Özünüzü çox pis hiss edəcəksiniz. Artıq çəki sizə əziyyət verəcək. Bu həftə ulduzlar sizə fitnes klubda məşq etməyi məsləhət görür. Yüngül pəhriz saxlasanız, pis olmaz. Uğurlu gününüz çərşənbə axşamıdır.

**Əkizlər**
Bu həftə ulduzlar sizə idmandan kənar gəzməyi məsləhət görür. Bir az səhhətinizə fikir verin. Özünüzü yormayın. Əks halda həkimə müraciət etməli olarsınız. Uğurlu gününüzün cümə olduğunu demək olar.

**Xərçəng**
Özünüzü göyün yeddinci qatında hiss etməyin. Çünki hər şey siz istədiyiniz kimi olmayacaq. Bu həftə ulduzlar sizə səhər qaçışı ilə məşğul olmağı məsləhət görürlər. Çərşənbə sizin üçün uğurlu gündür.

**Şir**
Ulduzlar bu həftə sizə səfərə çıxmağı məsləhət görür. Başınızı yarışlara çox da qatmayın. İdmanda indiyə qədər əldə etdiyiniz uğurlar bəsinizdir. Çərşənbə axşamı şirlər üçün ən uğurlu gündür.

**Qız**
Bu həftə idmanda fəallığınızı artırsanız, yaxşı olar. Ulduzlar qarşıdakı yarışlarda yüksək nəticələr vəd edirlər. Özünüzü sığortalayın. Çərşənbə günü sizə uğur gətirə bilər.

**Tərəzi**
Ulduzlar sizə idmandan kənar gəzməyi məsləhət görmür. Bu həftəni bütünlüklə idmana həsr edin. Çünki idman sağlamlıq deməkdir. Uğurlu gününüz cümə və şənbədir.

**Əqrəb**
Maliyyə cəhətdən vəziyyətiniz elə də ürəkaçan olmayacaq. Ciddi işlərə girişməyin, çünki bu həftə bəxtiniz gətirməyəcək. Yaxşısı budur ki, başınızı idmanla qatın. Ən uğurlu gününüz cümə axşamıdır.

**Oxatan**
Həftənin birinci yarısında bütün məşqlərinizi təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz. Həftənin ikinci yarısını gözləyin. Bazar günü həm idmanda, həm də maddi durumunuzda yeniliklər olacaq.

**Oğlaq**
Maddi cəhətdən sıxılacaqsınız. Sizi əsəbiləşdirmək istəyənlərin sayı çoxalacaq. Amma əsəblərinizi pozmayın, idmana daha çox üstünlük verin. Ulduzlar bu həftə ən uğurlu gününüzün şənbə olduğunu söyləyir.

**Dolça**
Bu həftə istirahət etmək fikriniz baş tutmayacaq. Əksinə, yeni işlərə başlamaq lazımdır. Büdcənizdə artım da ola bilər. Yoldaşlarınızla mübahisədən uzaq qaçın. Başınızı işə qatıb idmanı unutmayın. Uğurlu gününüz çərşənbə axşamıdır.

**Balıqlar**
Bu həftə sizin üçün ən uğurlu həftələrdən biri olacaq. Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələr olsa da, özünüzü təmkinli aparın. Deyilən hər sözə ciddi yanaşmayın. Çünki bu həftə sizin kefinizi heç kim və heç nə poza bilməz. Yaxşı olar ki, gününüzə səhər qaçışları ilə başlayasınız.

**olimpnews.az - sizin saytınız**




## Xatirə turniri uğurla yekunlaşdı

Azərbaycan futbolunun istedadlı nümayəndələrindən biri, SSRİ Əməkdar idman ustası, SSRİ-nin Əməkdar məşqçisi, dörd dəfə SSRİ çempionu olmuş mərhum Ələkbər Məmmədovun 89-cu ildönümü ilə əlaqədar AFFA-nın dəstəyi, Futbol Veteranları İttifaqının təşkilatçılığı ilə keçirilən xatirə turnirinə yekun vurulub.

Mükafatlandırma mərasimində AFFA-nın Məşqçilər Komitəsinin üzvü Ağasəlim Mircavadov, Futbol Veteranları İttifaqının sədr müavini Rüstəm Rəhimov, futbol veteranları Çingiz İsmayılov, Əbdülqəni Nurməmmədov, Səməd Qurbanov, Orucəli Durmuşov, Fizuli Nəcəfov və futbol ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.

"Keşlə" komandası turnirin qalibi olub. "Sabah" ikinci, "Səbail" isə üçüncü yeri tutub. Rəvan Mustafayev ("Keşlə") turnirin ən yaxşı qapıçısı, Ömər Yusublu ("Sabah") isə ən yaxşı oyunçusu seçilib.

Hər üç komandaya medallar, qalib komandaya kubok təqdim olunub.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin kollektivi veteran idmançı

**Ülkər Qasımovanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Ağalar Cavadov, İslam Fərzəliyev, Şəmsəddin Hüseynov, Ələmdar Məmmədov, Qənbər Ağayev, Əlikram Əliyev, Zaman Hüseynov və Murad Fərzəliyev Arif Şadlinskiyə, anası

**Şərqiyyə xanım Şadlinskayanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19